Günəş Şərqdən doğur!
№ 109 (5390), 2021-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
23 iyun 2021-ci il (çərşənbə)



## Minalanmış ərazilərin xəritəsini Ara Ayvazyan gizlədirmiş

Buna görə əsir məsələsini mayın 27-dək həll etmək mümkün olmayıb

(Səh.6)



## Baş katibdən çağırış

Mina xəritələri Azərbaycana verilməlidir

Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriç AŞPA-nın yay sessiyasında çıxışında Ermənistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərində basdırılmış minaların xəritələrini verməsinin zəruriliyi məsələsini vurğulayıb.

(səh.2)

## Üç ölkənin XİN rəhbəri Azərbaycana gəlir



Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirləri Azərbaycana səfər edəcək.

(səh.6)

# İlk dəfə unikal şans yaranıb



## "Azərbaycan sülh razılaşması üçün Ermənistanla birgə işləməyə hazırdır"

(səh.2)

# Operativ Qərargah xalqın əsəbi ilə oynayır



Toylara icazə verilməsəydi bundan daha yaxşı olardı

(səh.9)

## Millət vəkilləri ictimai müzakirə tələb edir

Əlilliyin təyin edilməsi ilə bağlı qanun vəziyyəti daha da ağırlaşdıracaq

(səh.4)

## Nazirlər Kabinetinin qərarı ilə razılaşmırlar

Azər Rəşidoğlu: "Çoxsaylı hüquqşünaslarla məsləhətləşdim və belə tələbin qanuna zidd olduğunu bildirdilər"

(səh.7)

## "Qarabağda risklər qalır"

Hasan Oktay: "Sülhməramlıların olduğu bölgə eyni ilə Donbass kimi Rusiyanın nəzarətində qala bilər"

(səh.8)

## Kimsə kimsəyə çip-filan yerləşdirmir

Koronavirus peyvəndi dəridə maqnit effekti yarada bilməz

(səh.9)

# İlk dəfə unikal şans yaranıb




Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov TRT "World"ə müsahibəsində Ermənistanla münasibətlərdən danışıb. Nazir bildirib ki, Azərbaycan sülh razılaşması üçün Ermənistanla birgə işləməyə hazırdır: "Biz reallığa fokuslanmalıyıq. Reallıq isə belədir: müstəqillik qazandıqdan bəri ilk dəfədir ki, Azərbaycan və Ermənistan arasında münasibətləri normallaşdırmaq üçün unikal şans yaranıb. Niyə ilk dəfə deyirəm? Çünki artıq ortada işğal faktı yoxdur".

**“Ermənistandan siyasi iradə və real addımlar gözləyirik”**

*XİN rəhbəri Ermənistana mina xəritələrinin təhvil verilməsi ilə bağlı çağırış edib. Nazir xatırladıb ki, BMT-nin dörd qətnaməsinə uyğun olaraq Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib:* ”Orta-da təxminən 30 illik düşmənçilik, işğal, itkilər, müharibənin ağır nəticələri var. Ancaq inanırıq ki, biz gələcəyə baxmalıyıq. Bilirsiniz, bu bizim üçün asan deyil, çünki yaddaş, baş verənlərin hamısı təzədir. Bununla belə Azərbaycan Prezidenti münasibətlərin normallaşmasının lazım olduğunu bildirib. Azərbaycan sülh razılaşması üçün Ermənistanla birgə işləməyə hazırdır. Biz bunu təklif edirik. Ermənistandan da bu səviyyədə siyasi iradə və real addımlar gözləyirik”.

**“Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini daha üst səviyyəyə qaldıracaq”**

*C.Bayramov bəyan edib ki, iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında münasibətlər ən yüksək səviyyədədir:* ”İki ölkə arasında bütün sahələrdə geniş əməkdaşlıq mövcuddur. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətləri daha üst səviyyəyə qaldıracaq, müxtəlif sahələrdə əlaqələrin daha da genişlənməsinə və dərinləşməsinə imkanlar açacaq”. XİN başçısı qeyd edib ki, Şuşa Bəyannaməsinə görə, tərəflərdən birinin suverenliyinə və ərazi bütövlüyünə təhlükə olarsa, tərəflər BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə dəstək verəcək.

**İsmayıl**



## Baş katibdən çağırış

### Mina xəritələri Azərbaycana verilməlidir

**Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriç AŞPA-nın yay sessiyasında çıxışında Ermənistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərində basdırılmış minaların xəritələrini verməsinin zəruriliyi məsələsini vurğulayıb.**

APA-nın Avropa bürosunun verdiyi xəbərə görə, Mariya Peyçinoviç-Buriç qeyd edib ki, keçmişdə konfliktin olduğu regionda minaların qalması insan həyatına çox təsir edir: ”Unudulmamalıdır ki, mina xəritələrinin əldə olunması və onların ərazidən təmizlənməsi çox vacibdir. Əks təqdirdə, bura insanların geri qayıtması və orada yenidən həyat qurması üçün uyğun olmayacaq”.

*Hazırda hərbi əsirlərlə bağlı narahatlıqların da olduğunu bildirən Baş katib Avropa Şurasının Azərbaycanla Ermənistan arasında əsirlərin və mina xəritələrinin mübadiləsini alqışladığını vurğulayıb:* ”Bu, demək olar ki, iki dövlət arasında ilk simvolik və çox vacib humanitar və insani reaksiyadır. Ümid edirəm ki, gələcəkdə bunlar davam edəcək”.

# Qarabağa gəlirlər

## “BMT rəsmiləri erməni vəhşiliklərini öz gözləri ilə görəcək”



**Prezident İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, son aylar ərzində Azərbaycan və UNESCO arasında videokonfrans formatında bir sıra görüşlər keçirilib.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bildirib.

”2021-ci il iyunun 21-də baş tutmuş sonuncu görüş zamanı Azərbaycan tərəfi ölkəmizin UNESCO missiyasını qəbul etməyə hazır olduğunu bir daha vurğulayıb və təşkilatı bu prosesi sürətləndirməyə çağırıb. Bu xüsusda, UNESCO missiyasının işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına və Şuşa şəhərinə səfəri ilə bağlı müzakirələr aparılıb.

Əlavə olaraq qeyd etmək istərdim ki, Azərbaycan tərəfi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) arasında aparılmış müzakirələr nəticəsində BMTQAK-ın ölkəmizin münaqişənin təsirinə məruz qalmış ərazilərinə missiyasının həyata keçirilməsi ilə bağlı razılıq əldə edilib. Azərbaycan BMTQAK missiyasını da qəbul etməyə tam hazırdır. Hazırda səfərlə əlaqədar işlərin yekunlaşdırılması üçün hər iki təşkilatdan cavab gözləyirik”, - deyə XİN rəsmisi vurğulayıb.

**Millət vəkili Elman Məmmədov sözügedən səfərin əhəmiyyəti barədə ”Şərq”ə danışıb:** ”Bu, BMT-in Azərbaycana diqqətidir və çox mühümdür. BMT rəsmiləri erməni vəhşiliklərini öz gözləri ilə görəcək və Qarabağ həqiqətlərini biləcəklər. Sonda da otuz il ərzində məlum qətnamələri niyə icra etmədiklərinə görə özlərini qınayacaqlar. Anlayacaqlar ki, zamanında obyektiv davransaydılar, həmin vəhşiliklər törədilməzdi. BMT rəsmilərinin heç olmasa bundan sonra obyektiv davranacaqlarını, işğalçı ilə təcavüzə məruz qalanı tərəzinin eyni gözünə qoymayacaqlarını arzulayıram. Ümid edirəm ki, uşaq qatillərinə zamanında tribuna, mikrofon verdiklərinə görə utanacaqlar”.

**Kənan**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Nazirlər Kabinetinin toplantısı keçirilib. Toplantıda dövlət başçısının Azərbaycana rəsmi səfərinin yekunları da müzakirə olunub.**



İclasdan sonra Türkiyə prezidenti mətbuata açıqlamalar verib. O, Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu bildirib:

# Şuşa Bəyannaməsi Qars müqaviləsindən də əhəmiyyətlidir

## *“Bütün potensialımızı birləşdirərək ortaq gələcəyimizi müəyyənləşdirə biləcəyik”*

”Şuşa Bəyannaməsi ilə münasibətlərimizdə yeni bir dövr başlatdıq. Azərbaycanla bir çox anlaşmanı yaxın zamanda imzalayacağıq, qardaşlığımızın hüquqi təməlini gücləndirəcəyik”.

**Sabiq millət vəkili, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev ”Şərq”ə bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri diplomatik sahədə xüsusi bir əlaqələrə çevrilib:** ”Bu həm də iki dövlət əhalisinin istəyi idi. Tarixin doğru-dürüst siyasi təkamülündən sonra nəhayət, layiq olan münasibətlər sistemi quruldu. 70 illik sovet imperiyası bu əlaqələri qırmışdı, amma zaman göstərdi ki, heç bir zaman kəsiyi iki dövlətin birliyinə mənfi təsir edə bilməyəcək. Şuşa Bəyannaməsi 100 il əvvəl bağlanan Qars müqaviləsi qədər, bəlkə, ondan daha çox əhəmiyyətli və əhatəlidir. Şuşa Bəyannaməsi bütün Azərbaycanın taleyi üçün mühüm rol oynayan bir sənəddir.

Bu bəyannamədə bəzi detal diqqəti cəlb edir: İki dövlətin bütün sahələrdə münasibətləri tənzimlənir. Hərbi sənaye kompleksinin yaranması, ortaq ordunun formalaşması, gələcək təhlükəsizlik istiqamətləri, iqtisadi və sosial əlaqələrin inkişafı və s.

Bu baxımdan Şuşa Bəyannaməsi bölgənin və türk dövlətlərinin hamısının taleyini həll edən sənəddir. Perspektivdə türk əməkdaşlıq təşkilatı da istədiyimiz formada olacaq”.

*F.Quliyev qeyd edib ki, cənab Ərdoğan toplantı zamanı çıxışında Azərbaycan-Türkiyə münasibətlərinə böyük əlaqələrin təməl prinsipi kimi yanaşıb:* ”Hesab edirəm ki, Azərbaycan tərəfi də bu məsələlərə öz imkanları ilə qarşılıq verəcək. Bütün potensialımızı birləşdirərək ortaq gələcəyimizi müəyyənləşdirə biləcəyik. İki prezident dövlətlərin münasibətini prinsipcə ortaya qoyub və bundan doğan müddəaları da icraedici orqanlar həyata keçirəcək. Hər iki dövlətin mənafelərini özündə əks etdirməklə yanaşı bölgəyə də ciddi şəkildə sülh, sabitlik və inkişaf gələcək”.

**Yeganə Bayramova**

# Şuşa Qafqazın sülh mərkəzinə çevrilir




## “Bəyannamədə bəzi mühüm müddəaların yer alması bizim gücümüzü daha da artırır”

**Parlamentin dünənki iclasında deputatlar Şuşa Bəyannaməsinin imzalanmasını yüksək qiymətləndiriblər. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, 15 iyunda - Azərbaycan dövlətinin xilası günündə Şuşada Türkiyə dövləti ilə imzalanan hərbi-siyasi İttifaqı Ermənistana təhlükə kimi qələmə verənlərin qorxu və xof siyasəti nəticə vermədi.**

Çünki erməni xalqı başa düşür ki, onların təhlükəsizliyinə və siyasi gələcəyinə üçüncü dövlətlərin verdikləri hərbi təminat Türkiyə və Azərbaycanın qarantiyasını əvəz edə bilməz: ”İki dövlətin hərbi İttifaqı başqa ərazilərə hücum planı deyil, əksinə, 100 illik Qars müqaviləsinə istinad edilməsi Şuşanı Qafqazın sülh mərkəzinə döndərir. Ərdoğanın səfəri qardaş ölkənin dövlət başçısının Şuşaya ilk səfəri olsa da, yeni seçilən İran prezidenti, o cümlədən, ABŞ və Rusiya rəhbərləri də gəlib Şuşada ölkə rəhbərinin ziyarətində ola bilərlər. Onlara da yol açıqdır”. Deputat əlavə edib ki, iki gün əvvəl Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinin yekunları Vətən müharibəsində parlaq qələbəmizin nəticələrinə tam uyğundur: ”10 noyabr razılaşmasının ümumxalq səsverməsi ilə qəbuludur. Digər tərəfdən, erməni xalqı və ordusu yeni müharibələrə qadir olmadığını, işğal partiyasının rəhbərləri Koçaryanın və Sarkisyanın 30 illik istismar düşərgələrində və səngərlərində bir daha ölmək istəmədiklərini nümayiş etdirdi. Əks halda, dünya tarixində məğlub Ali Baş Komandana yenidən mandat verilməsi görünməmiş hadisədir. Deməli, Azərbaycanın qələbəsi 90-cı illərdə miflərlə aldadılmış başqa bir xalqı da xilas etdiyi üçün 687 min insan indi sülhə səs verir”.

**Millət vəkili Cavid Osmanov da qeyd edib ki, Azərbaycanla Türkiyə arasında olan qardaşlıq münasibətləri yeni mərhələyə qədəm qoyub. Deputat bildirib ki, 100 il sonra Azərbaycanın ərazi bütövlüyünün təminatçısı olaraq Şuşa Bəyannaməsi imzalandı:** ”Türkiyə və Azərbaycan arasında hərbi müttəfiqlik təsbit olundu. Bəyannamədə bəzi mühüm müddəaların yer alması bizim gücümüzü daha da artırır. Bu sənəd Azərbaycanın daha güclü ordusunun yaradılmasına sözsüz ki, öz töhfəsini verəcək. Türkiyə dünya masştabında güclü ölkəyə çevrilib. Şuşa Bəyannaməsinin imzalanmasının çox böyük tarixi əhəmiyyəti var. Bu bəyannamənin Şuşada imzalanması tarixi hadisədir. İkincisi, bu bəyannamənin imzalanması günü təsadüfi seçilməmişdi. 15 iyunu biz Qurtuluş günü kimi qeyd edirik. Şuşa Bəyannaməsi bölgədə sülhə, əmin-amanlığa dəstək olacaq sənəddir. Bu sənəd hər iki ölkənin milli maraqlarına uyğundur. Bununla bağlı 48 partiya da dəstək verdi”.

**Deputat Tural Gəncəliyev isə ötən həftə sonu keçirilmiş Antalya Diplomatiya Forumu haqqında danışıb.** O, Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun dəvəti ilə Forumda iştirak etdiyini bildirib: ”Türkiyə qlobal güc mərkəzinə çevrilir. Forumda Azərbaycana xüsusi diqqət göstərilirdi. Bütün ölkələrin təmsilçiləri Azərbaycanın hazırda Cənubi Qafqazda və Cənubi Qafqazdan kənarda rolunu xüsusi qiymətləndirirdilər. Türkiyədə ənənəvi olaraq keçiriləcək bu forumda iştirak etmək çox əhəmiyyətlidir. Bu forum yeni regional məsələləri müzakirə etmək baxımından çox vacibdir”.

**İsmayıl Qocayev**

# "Qarabağ klanı"nı da məğlub etdik

## Zahid Oruc: “Azərbaycan Ermənistanın təhlükəsizliyinə təminat verir”



**Ermənistanda parlament seçkilərinin nəticəsinə əsasən Nikol Paşinyanın ”Vətəndaş sazişi” partiyası səslərin 53.9 faizini toplamaqla qalib gəlib.**

Ermənistanın eks-prezidenti Robert Koçaryanın ”Ermənistan” bloku isə 21 faiz səs toplayıb. Ermənistandakı parlament seçkilərinin nəticəsi göstərdi ki, Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti nəticəsində düşmən ölkə regionun siyasi və iqtisadi həyatından kənarda qalıb.

Ölkənin iqtisadiyyatı çöküb, əhalinin sosial durumu ağırlaşıb, İrəvan xarici yardımdan asılı vəziyyətə düşüb. Əks halda xalq kapitulyasiya sənədini imzalayan Paşinyanı yox, şirin vədlər verən Koçaryan-Sarkisyan cütlüyünü hakimiyyətə gətirərdi.

**Millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin idarə heyətinin sədri Zahid Oruc bu barədə ”Şərq”ə danışıb:** ”SSRİ dağılandan sonra bir çox ölkələrdə, o cümlədən Ermənistanda azadlıq meyilləri torpaq iddiaları ilə müşayiət olundu. Əlbəttə, Ermənistanın aqibətinin yeganə səbəbkarı təkcə Paşinyan deyil, həm də özündən əvvəlki siyasətçilər, o cümlədən Robert Koçaryan və Sej Sarkisyandır. Seçkilərin nəticəsi 44 günlük müharibədə Azərbaycanın qazandığı nəticəyə tam uyğundur. Erməni xalqı öz seçimi ilə qələbəmizi, məğlubiyyətlərini tanıdıqlarını göstərdi. Biz öz zəfərimizlə həm də ”Qarabağ klanı”nı məğlub etdik. Bu azmış kimi, yerli xalq da öz seçimi ilə Koçaryan və Sarkisyana ”şillə vurdu”. İctimaiyyət Şuşa və Hadrutu yox, sabitliyi vəd edən siyasətçisini seçdi. Əlbəttə, düzgün seçimdir. Çünki beynəlxalq hüququ pozmayacağı, şərtlərimizə əməl edəcəyi təqdirdə Azərbaycan Ermənistanın təhlükəsizliyinə təminat verir. Deməli, ”Dəmir yumruq” əməliyyatı seçkilərin nəticəsinə birbaşa təsir etdi”.

**Kənan**

# Professional orduya keçməliyik

## Ümumi hərbi çağırış ləğv edilsin

**“Hərbçilərimizin maaşı 3 qat artırılsın!”.** Bu təkliflə öz feysbuk hesabında Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu çıxış edib. O qeyd edib ki, bu addım 26 iyun ordu gününə ən gözəl hədiyyə olar.

**İqtisadçı-alim Nazim Bəydəmirli “Şərq”ə açıqlamasında səslənən təklifə münasibət bildirib:** ”Əlbəttə, DYP işçilərinin vətən üçün canlarından-qanlarından keçməyə hazır olan hərbçilərdən dəfələrlə artıq maaş alması haqlı narazılığa səbəb olur. Məsələ ondan ibarətdir ki, ölkədə əksər güc strukturları cərimələmək səlahiyyətlərinə malikdirlər. Beləliklə, sosial müdafiəni yaxşılaşdırmaq adı ilə dövlət büdcəsindəki maaşdan əlavə pul alırlar. Bu bəzən onların qanuni maaşlarından dəfələrlə artıq olur. Əlbəttə, büdcə imkan verdikcə güc strukturlarının, o cümlədən ordunun sosial rifahını yaxşılaşdırmaq dövlətin vəzifəsidir”.

**N.Bəydəmirli, həmçinin çıxış yolunu göstərib:** ”Professional orduya keçmək, müqavilə əsasında xidmətə üstünlük vermək lazımdır. Sovet dövründən qalma ümumi hərbi çağırış ləğv edilməlidir. Silahlı qüvvələrimiz Türkiyə standartlarına uyğunlaşmalı, mobilləşməlidir. Belədə ayrılan vəsaitə xeyli qənaət etmiş olarıq”.

**Kənan**

# AŞ PA-da səslənən ittihamlara vaxtında cavab verilməlidir

## “Azərbaycana qarşı istənilən qərəzli münasibəti məhz diplomatik və operativ işlə aradan qaldırmaq olar”




Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov qurumu sərt tənqid edib. Deputat bildirib ki, Avropa Şurasının fundamental hüquqlarından olan söz azadlığından birtərəfli məlumatların yayılması üçün istifadə edirlər.

Onun sözlərinə görə, büronun fəaliyyətinə həsr olunmuş hesabatda AŞ PA-nın sonuncu sessiyasından etibarən baş verən ən əlamətdar hadisələr yer almalıdır: ”Bununla belə, iyunun 12-də Azərbaycanla Ermənistan arasında baş verən razılaşma haqqında burada heç bir məlumat verilmir. Bu razılaşma nəticəsində Azərbaycanın Ağdam rayonundakı mina sahələrinin xəritəsi Ermənistan tərəfindən Azərbaycana təqdim edilib və bunun əvəzində bir sıra erməni əsir azad edilib. Lakin bunun əksinə olaraq, əsirlərə qarşı humanitar hüquqa zidd şəkildə rəftar olunması haqqında yoxlanılmamış, yalan məlumatlar verilir. Yəni birtərəfli məlumatlara rast gəlirik. Fundamental hüquqlarımızdan olan söz azadlığından birtərəfli və yoxlanılmamış məlumatların yayılması üçün istifadə edilməməlidir. Məsələlər tam şəkildə öyrənilməlidir. İki ölkə arasında barışığın yaranmasına çalışılmalıdır”.

**Humanitar Tədqiqatlar Cəmiyyətinin sədri, konfliktoloq Əvəz Həsənov AŞ PA-nın ölkəmizə qarşı qərəzli münasibətinin səbəblərini ”Şərq”ə sadalayıb.**

”Səməd Seyidov AŞ PA-da nümayəndə heyətinin rəhbəri olduğu üçün prosesləri yaxşı bilir. AŞ PA kimi böyük bir qurumda kifayət qədər sanballı nümayəndə heyətimiz varsa, onlar yalnız sessiyadan-sessiyaya AŞ PA-nın bizə olan qərəzli fikirləri barədə danışmamalıdırlar. Bütün proseslər dövründə AŞ PA ilə işləmək lazımdır. Fikrimcə, qərəzli münasibətin əsas səbəblərindən biri məlumatsızlığın olmasıdır. Çünki AŞ PA üzvü olan bütün deputatlar borclu deyillər ki, Azərbaycan mətbuatında gedən yazıları oxuyub, ondan xəbərdar olsunlar. Ən azı azərbaycanlı nümayəndələr ölkəmizdə baş verənlər barədə bütün AŞ PA üzvlərini, xüsusilə fraksiya rəhbərlərini məlumatlandırmalıdır”.

Ə.Həsənov qeyd edib ki, qərəzli mövqenin digər səbəbi Azərbaycanın Cənubi Qafqazda sabitliyin əldə olunması üçün müəyyən addımlar atmasıdır: ”Ola bilsin ki, bu, bəzi Avropa ölkələrinin xoşuna gəlmir. Niderland və Belçika deputatları və hökumətlərinin Azərbaycanla bağlı qəbul etdikləri bəyanatlar və bizə qarşı istifadə olunan ritorikadan bunu görürük. Əsas problem müvafiq xarici strukturlarla yaxşı işin qurulmamasıdır. Nümayəndə heyətimiz bunu edəcəksə, ola bilsin ki, ölkəmizə qarşı qərəzli münasibətin qarşısını ala bilərik. 44 günlük müharibə zamanı cənab Prezidentin beynəlxalq aləmlə operativ işlədiyinin nəticəsini gördük. Azərbaycana qarşı istənilən qərəzli münasibəti məhz diplomatik və operativ işlə aradan qaldırmaq olar”.

**Yeganə Bayramova**

# Millət vəkilləri ictimai müzakirə tələb edir

## Əlilliyin təyin edilməsi ilə bağlı qanun vəziyyəti daha da ağırlaşdıracaq



Dünən Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. İclasın gündəliyində 14 məsələ olub. Deputatlar gündəliklə yanaşı, cari məsələlərlə bağlı da çıxışlar ediblər və bir sıra problemlər diqqətə çatdırılıb. Əsasən, əlillik dərəcəsinin müəyyən olunması ilə bağlı müzakirələr aparılıb, tənqidlər səsləndirilib. Öncə Milli Məclis sədri Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərindən və Şuşa Bəyannaməsindən danışıb. Spiker bildirib ki, Azərbaycan və Türkiyə xalqları arasında dostluq və qardaşlıq ən böyük sərvətimizdir:

"Azərbaycan parlamenti ötən həftə çox tarixi gün yaşadı. Cənab Ərdoğan parlamentdə çıxış etdi. Prezident Ərdoğanın rəhbərliyi ilə Türkiyə çox möhtəşəm inkişaf yolu keçib. Bu gün siyasi, iqtisadi, hərbi gücünə görə Türkiyə dünyanın ən güclü ölkələrindən biridir. Qardaş ölkənin bu uğurları bizi sevindirir. Çünki Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Xalqlarımız arasında olan dostluq və qardaşlıq bizim ən böyük sərvətimizdir. Prezident İlham Əliyevin də dediyi kimi, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir. İkinci Qarabağ müharibəsindən sonra bölgədə yeni reallıq yaranıb. Türkiyə Prezidenti Ərdoğanın işğaldan azad edilmiş Şuşanı ziyarət etməsi, orada Azərbaycan və Türkiyə bayraqlarının yanaşı dalğalanması xalqlarımızın qardaşlığının növbəti nümayişidir. Şuşada imzalanan Bəyannamə bu münasibətləri daha da gücləndirib. Türkiyə Prezidentinin verdiyi ən önəmli mesajlardan biri də bu idi ki, Türkiyə Azərbaycanın yanındadır".

**"Elektrik sayğacları ilə bağlı bizə çox sayda şikayət gəlir"**

**"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputat Vahid Əhmədov bildirib ki, ən böyük problem sayğaclarla bağlıdır.** Onun sözlərinə görə, bununla bağlı deputatlara çox sayda şikayət gəlir: "Yeni qanunda ağıllı sayğac anlayışından bəhs edilir. Ümumiyyətlə, aydınlıq gətirilməlidir ki, köhnə sayğaclar dəyişdiriləcəkmi?"

**Deputat Sadiq Qurbanov isə bu suala cavabında bildirib ki, komitə iclasında məsələ qaldırılıb:** "İşğaldan azad olunmuş ərazilərimizdə "ağıllı şəhər", "ağıllı kənd" anlayışları tətbiq edilir. Mənə verilən məlumata görə, Avropa standartlarına cavab verən ağıllı sayğaclar tətbiq ediləcək. Sayğacların balansını internet vasitəsilə artırmaq mümkün olacaq".

**"Kənd təsərrüfatı ilə bağlı təbliğat kampaniyası daha da gücləndirilməlidir"**

**Millət vəkili Rüfət Quliyev bildirib ki, regionlarda insanlar daha çox kənd təsərrüfatı ilə məşğul olur.** Lakin bir çox halda insanlar torpaqdan soyuyurlar: "Bu, dünyanın bir çox yerlərində baş verir. Yaxşı olar ki, ayrı-ayrı insanlara özünüməşğulluq proqramına qoşulmaq təklif olunsun, bu təkliflərin sayı artsın". Deputat deyib ki, Lənkəranda keçirdiyi görüşlərdə seçiciləri övladlarının beynəlxalq hüquq, gömrük və s. sahəni bitirdiyini, işsiz olduğunu deyir: "Lənkəranda əsas trend kənd təsərrüfatıdır. Lənkəranda neçə gömrük işçisinə ehtiyac ola bilər ki? Təklif edirəm ki, kənd təsərrüfatı ilə bağlı təbliğat kampaniyası daha da gücləndirilsin. Kənd təsərrüfatı hazırda Azərbaycanda inkişaf edir, biz bundan razıyıq. Amma bu işin sürətindən razı deyilik".

**"Süründürməçilik yaranır. Bu işi bilən adamlar hazırlanmalıdır"**

**Deputat Sabir Rüstəmxanlı əlillərə daha asan xidmət göstərilməsi ilə bağlı təklif verib:** "Rayonlarda, elə Bakının özündə də əlillik dərəcələrinin müəyyənləşdirilməsi üçün lazım olan sənəd və məlumatlar elektron qaydada göndərilir. Rayon xəstəxanalarında isə bu işi görə bilən əməkdaş çox azdır. Bir xəstə üçün bu məlumatların cədvələ doldurulması bəzən saatlarla vaxt alır. İnsanlar xeyli vaxt itirir. Sənəd gec gedir, işçilər çox vaxt yeni olduğuna görə, sənəd düzgün doldurulmur. Süründürməçilik yaranır. Bu işi bilən adamlar hazırlanmalıdır".

**"Qanun layihəsi bu sahədə vəziyyəti daha da ağırlaşdıracaq"**

**Deputat Razi Nurullayev isə deyib ki, insanların taleyini müəyyən edən məsələlər geniş ictimai müzakirələrdə dinlənilməli, qərarı da Parlament verməlidir.** Millət vəkili əlillik dərəcəsinin müəyyən olunması ilə bağlı qanun layihəsinin əleyhinə səs verəcəyini söyləyib: "Əlilliyin müəyyənləşdirilməsi haqqında layihə xeyli təzadlı mövqeləri ortaya qoydu. Qanun layihəsinin bu sahədə vəziyyəti daha da ağırlaşdıracağı düşüncəsindəyəm. Ona görə də qanunun əleyhinə səs verəcəyəm. Bu problemlərə yol açan ən ağrılı məsələ isə Nazirlər Kabinetinin qəbul etdiyi 2015-ci il 30 dekabr tarixli 413 saylı qərarıdır. "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə" təsdiq edilib və bir çox xəstəlik siyahıdan çıxarılıb. Bu tip qərarları Nazirlər Kabineti təkbaşına qəbul etməməlidir. Bunu Milli Məclis müzakirə etməlidir. Ümumiyyətlə, insanların taleyini müəyyən edən məsələlər geniş ictimai müzakirələrdə dinlənilməli, qərarı da Parlament verməlidir. Çünki insanların qarşısına çıxan və ən qəddar suallara məruz qalan məhz deputatlardır".

**"Məşğulluq xidmətləri vətəndaşları yola verməklə məşğul olur"**

**R.Nurullayev əlavə edib ki, ölkədəki məşğulluq xidmətləri ilə bağlı vəziyyət onu qane etmir:** "Hər gün biz o xidmətlərə dəfələrlə müraciət edirik, vətəndaşlara ya vakansiya yoxdur, ya da filan saytı izləyin, vakansiya olanda müraciət edin deyilir. Məşğulluq xidmətləri vətəndaşları yola verməklə məşğul olur. İş yoxdursa, insanlara yol göstərsinlər. 5-6 ay insanları gözlədirlər, axırda da iş olacaq, olmayacaq bəlli deyil. Bəs bu 5-6 ayda vətəndaş nə yeməlidir? Məşğulluq xidmətləri insanlara yol göstərməlidir ki, iş tapana qədər necə müavinət almalıdır, hansı qurumlara baş vurmalıdır. Amma heç birini etmirlər, insanları yola verirlər".

**"Büdcəyə yenidən baxmaq lazımdır. Neftin qiyməti bahalaşıb"**

**Deputat Tahir Kərimli büdcəyə yenidən baxılmasını təklif edib:** "Sosial problemləri daha yaxşı həll etmək üçün təklifim budur ki, Milli Məclisdə büdcəyə yenidən baxaq. Neftin qiyməti büdcədə nəzərdə tutulandan xeyli artıb. Büdcəyə yenidən baxmaq olardı. Nə üçün hökumət buna getmir? Milli Məclisə niyə təklif vermir? Yaxşı olardı ki, büdcəyə yenidən baxaq, pensiya, maaş, sosial müavinəti artıraq. Bu təkliflərlə çıxış edəndə mənə diletant deyirlər. Kompleks məsələlərin islahatlar çərçivəsində həllinə tərəfdaram. Büdcəyə yenidən baxılsa, artımlar olsa, yaxşı olar".

**"Qarşıdakı 5 ay kifayət etməyəcək..."**

**Millət vəkili Musa Quliyev əlillik meyarları ilə bağlı dəyişikliklərin 1 iyul 2022-ci ildən qüvvəyə minəcəyini bildirib.** Deputatın sözlərinə görə, əlilliyin orqanizmin funksiyasının pozulmasına görə qiymətləndirilməsi zamanı meyarların cədvəlində olan xəstəliyə uyğun əlillik təyin olunacaq: "Tək böyrəyin zədələnməsi xroniki böyrək çatışmazlığı 80 faiz əlillik kimi qiymətləndirilir. Dərəcələr arasındakı qiymətləndirmə 1 faiz aralığı ilə deyil, 5 faiz aralığı ilə diferensiallaşdırılacaq. Əlilliyin müəyyən edilməsi meyarları layihəsi üzərində deputatların təklifi ilə iş aparılması müvafiq nazirliyə deyilib. Komitə hesab edir ki, əlillik meyarlarının dəqiqləşdirilməsi, icbari tibbi sığorta həkimlərinin treninqlərə cəlb edilməsi, proqram təminatının həyata keçirilməsi üçün qarşıdakı 5 ay kifayət etməyəcək. Qanuna edilən dəyişikliklərin 1 iyul 2022-ci il tarixindən qüvvəyə minməsi məqsədəmüvafiq hesab edilib. Bu, Prezident Administrasiyasının müvafiq şöbəsi ilə də razılaşdırılıb. Əvvəl dəyişikliklərin 2022-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulmuşdu".

**"Saxta əlillərə 1-2 ay müavinət verilsin"**

**Parlament üzvü Siyavuş Novruzov saxta əlilliyi aşkarlanmış şəxslərə müavinət verilməsinin 1-2 ay davam etdirilməsini təklif edib:** "Yaralanmış qazilərimizin həm Azərbaycanda, istərsə də xarici ölkələrdə müalicəsi təşkil olunur. Dövlət tərəfindən çox mütərəqqi addımlar atılır. Biz burada veteranların, şəhid ailə üzvlərinin reyestrinin yaradılması barədə qərar qəbul etdik. Bu çox vacib addımdır. Bu, onların sosial müdafiəsinin gücləndirilməsi, işlə təmin edilməsi və s. baxımdan çox mühümdür. İkincisi, icra hakimiyyəti orqanlarında müharibə veteranları, şəhid ailələri ilə bağlı şöbə yaradılıb. Həmçinin ali məktəblərdə də bu kateqoriyadan olan insanlar pulsuz təhsil alacaq. İndiyə qədər bu güzəşt qaçqın və məcburi köçkün ailələrinə şamil olunurdu". Deputat qeyd edib ki, saxta əlilliyi olan şəxslər aşkarlanır, müvafiq addımlar atılır: "Saxta əlillik dərəcəsi olan insanlar var. Lakin mən onlara 1-2 ay həmin müavinəti verməyi təklif edirəm. Çünki həmin insanın tez bir vaxtda iş tapması mümkün deyil".

**"Həqiqi əlillər kənarda qalsın?"**

**Spiker Sahibə Qafarova isə bildirib ki, əgər insan saxta əlildirsə, ona müavinət verilməsi davam etdirilə bilməz:** "İnsanın əlilliyi saxtadırsa, ona necə yenə müavinət verilsin? Saxta əlilə müavinət verilsin, həqiqi əlillər kənarda qalsın?!".

**"Qanunda 6 ay tələbini götürmək lazımdır"**

**Deputat Əli Məsimli vurğulayıb ki, əlilliklə bağlı sənədlərin qəbul edilməsində Milli Məclis böyük məsuliyyətin çox hissəsini öz üzərinə götürdü və iki mühüm dəyişiklik etdi:** "Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr qərarında əlilliklə bağlı meyarlar 250-dən 150-yə endirilmişdisə, yeni qərarla bu meyarların sayı 800-dən çox olacaq. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif edilən yeni dəyişiklikdə niyə 4-5 ay yox, 7-8-9 ay yox, 6 ay müddət nəzərdə tutulur? Bu haqda fikirləşmək lazımdır ki, 6 aydan çox olanda nə olacaq? Yenə də bürokratik əngəllərə yol açılacaq. 6 ay tələbini aradan götürmək çox vacibdir. Çünki əlil şəxslərin tək gəlir yeri həmin müavinətlərdir. Yeni bu şəxslər 6 ay qədər gözləməz. Amma bürokratik əngəllər bu müddəti uzadır. İkinci ciddi məsələ kimi aralıq müddət yaranır. Nazirlər Kabineti 2015-ci il qərarını ləğv edəcək. Amma aralıq müddətdə yaranacaq problemlərin aradan qaldırılması üçün yeni qərarın qəbul edilməsi çox vacibdir. Çünki aralıq müddətdə Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli qərarı işləsə, çox böyük narazılıqlar yaranacaq".

**İsmayıl Qocayev**

# Kremlin oyunları pozuldu

Rusiya sülhməramlılarının nəzarətində olan Xankəndi şəhərində ermənilər aksiya keçiriblər. Ermənilər Nikol Paşinyanı müharibəni uduzmaqda, kapitulyasiyaya imza atmaqda ittiham ediblər. Mitinqçilər Paşinyanı müharibə vaxtı yalan məlumat yaymaqda, məğlubiyyətlərə baxmayaraq, hər şeyin yaxşı olduğunu deməkdə suçlayıblar.



## Paşinyan Rusiya və onun tərəfdarları üçün əsl təhlükəyə çevriləcək

Qarabağa yerləşdirilən ermənilərin 8 aydan sonra, "qəfildən" ayılmaları təsadüfi deyil. Ötən gün Ermənistanda keçirilən parlament seçkilərində "Qarabağ klanı"nın rüsvayçı məğlubiyyətə uğraması və Paşinyanı təbrik edən ilk şəxsin separatçı Araik Arutyunyan olması revanşist dairələri, o cümlədən Rusiyanın dəstəklədiyi Koçaryan qruplaşmasını hərəkətə keçirib. İndiki halda "Qarabağ klanı" yalnız Qarabağdakı ermənilərə ümid edir, orada başlatdıqları prosesləri daha sonra Ermənistana transfer etməyə çalışırlar. Bu arada erməni siyasi icmalçı Samvel Ohanesyan sosial şəbəkədə yazıb ki, Sarkisyan və Koçaryan Nikol Paşinyan kimi "zəif" sayılan rəqibi məğlub edə bilmədilər. Amma bu hələ başlanğıcdır. Onun fikrincə, quldur Robik və Serjik təslim olmaq fikrində deyillər: "Onların bu cür biabırçı uduzması onu göstərir ki, erməni xalqı quldurlardan, terrorçulardan bezib. İnsanlarımızın yadından çıxmayıb ki, bu iki quldurun hakimiyyəti dövründə biznesi olanlar qazanclarının yarısını onlara verməli idilər. Orduda əsgərlər alçaldılırdı, "dedavşina" baş qaldırmışdı. Əsgərləri zorlayırdılar. Avropaya inteqrasiya cəhdləri batırılırdı. Amma biz gördük ki, hətta ölkənin ağır siyasi vəziyyətində belə bu quldurların spekulyasiya etmək cəhdləri heçə endi. Onlar özləri üçün ən əlverişli bir anda məğlub oldular. İndi Paşinyan Ermənistanın siyasi və iqtisadi dalandan çıxarılması üçün titanik işlər görməlidir. Amma quldur Robik və Serjik Paşinyana qarşı gizli şəkildə təxribatlar təşkil edəcəklər".

**Seçkidə qalib olmuş Paşinyana qarşı təxribat iddialarını "Şərq"ə dəyərləndirən BAXCP sədrinin müşaviri Azər Qasımov bildirib ki, Ermənistanda keçirilən seçkilərin nəticəsi proqnozlaşdırıldığı kimi oldu.** Politoloqun fikrincə, bunun öncədən bilinməsi heç də Paşinyanın şəxsiyyəti ilə əlaqəli deyil: "Erməni cəmiyyəti müharibədən sonra yenidən eyni avantüraya getmək istəmədi və öz seçimini etdi. Paşinyanın üstün qələbəsi öz adamlarının yenidən hakimiyyətə gətirməyə çalışan Kremlin oyunlarını pozdu. Lakin bu, heç də Moskvanın oyunlarının bitdiyi anlamına gəlmir. Koçaryan və onun komandasının Paşinyan üçün hansısa təhlükələri ola bilər. Amma hesab edirəm ki, ciddi təhlükə olmayacaq. Əksinə, Paşinyan Rusiya və onun tərəfdarları üçün əsl təhlükəyə çevriləcək".

Partiya rəsmisi vurğulayıb ki, bu təhlükə heç də Paşinyanın Qərbə inteqrasiya etmək istəyi ilə bağlı deyil: "Rusiya bunun qarşısını almaq üçün ciddi səy göstərmir. Kremlə görə əsas təhlükə erməni cəmiyyətinin böyük bir hissəsinin "Rusiyadan aralanmaq" haqqında düşünməyə başlamasıdır. Belə fikir Rusiya üçün qarşısıalınmaz problemlər yarada bilər. Ən ciddi problem isə rus ordusunun Ermənistandan çıxarılması tələbinin dilə gəlməsidir. Moskvanın niyyəti erməni cəmiyyətinin gözləntilərini, Paşinyana ümidlərini yox etməkdir. Çalışırlar ki, əhalinin gələcəyə ümidi qalmasın və düşünsünlər ki, Rusiyasız erməni cəmiyyətinin yaşaması, ayaqda qalması mümkünsüzdür. Fikrimcə, Azərbaycan Ermənistanda baş verən istənilən prosesdən qazanclı çıxacaq".

**İsmayıl Qocayev**

# Yeni səhifə açılır

## "Pakistan və Azərbaycan orduları arasında təcrübə mübadiləsi bütün tərəflər üçün faydalı olacaq"



Azərbaycan və Pakistan orduları birgə hərbi təlimlər keçirəcək. Bu barədə Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, ordu generalı Qamar Caved Bacvanla görüşü zamanı razılıq əldə olunub. Bildirilib ki, tərəflər hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər. Tərəflər dağ təlimi mərkəzlərinin birgə istifadəsi və dağ-təlim heyətinin hazırlanması ilə bağlı da razılığa gəliblər.

Pakistan Azərbaycana qardaş və dost ölkə olduğunu dəfələrlə isbat edib. Hərbi, siyasi-ictimai dəstəyini heç vaxt əsirgəməyib. Pakistanın Ermənistanla münasibəti, ermənilərə mövqeyi də məlumdur. O baxımdan hesab edilir ki, güclü orduya və hərbi texnikaya malik Pakistan Silahlı Qüvvələri ilə ortaq təlimlər Azərbaycan Ordusu üçün mühüm və faydalıdır.

**Nəzərdə tutulan birgə hərbi təlimləri "Şərq"ə dəyərləndirən Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib ki, Pakistanın 44 günlük Vətən müharibəsində Azərbaycana verdiyi mənəvi-siyasi dəstək hər kəsə bəllidir.** Ekspertin sözlərinə görə, qardaş Türkiyə kimi dost Pakistan dövləti də Vətən müharibəsində birmənalı şəkildə Azərbaycanın yanında oldu, onunla tam və qəti həmrəylik sərgiləyib: "Pakistanın dəstəyi ölkə başçısı tərəfindən də dəfələrlə minnətdarlıq hissi ilə qeyd edilib. Pakistanla Azərbaycan arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrin inkişafı böyük əhəmiyyətə malikdir. Bildiyiniz kimi, Pakistan güclü orduya, o cümlədən güclü hərbi-sənaye kompleksinə, inkişaf etmiş raket texnologiyasına malik bir ölkədir. Pakistan dövlətinin istehsal etdiyi orta və uzaqmənzilli raketlər hədəfi böyük dəqiqliklə məhv etmək xüsusiyyətinə malikdir. Pakistan hərbi təyyarə istehsalına görə də xüsusi diqqət çəkən ölkələr sırasındadır. Bu baxımdan Pakistanla hərbi əməkdaşlıq ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Əməkdaşlıq Pakistan dövləti üçün də faydalıdır. 44 günlük Vətən müharibəsi göstərdi ki, dünyanın hərbi baxımdan ən çox inkişaf etmiş dövlətlərinin belə Azərbaycan Ordusundan öyrənməli olduğu şeylər var. Buna misal olaraq 44 günlük Vətən müharibəsində zərbə və müşahidə dronlarından kütləvi istifadəni, müxtəlif qoşun növləri arasında koordinasiyanın yüksək dəqiqliklə təşkili, ağır hərbi texnikadan istifadə etmədən çətin və mürəkkəb coğrafi mövqedəki bəzi ərazilərin, konkret desək, Şuşa şəhərinin azad edilməsini nümunə kimi göstərmək olar. Həmçinin, yüksək fiziki hazırlığa malik ordunun formalaşdırılması və s. məqamlar da var. Bütün bunlar Azərbaycan ordusunun nə qədər qüdrətli olduğunu göstərir".

*C.Xəlilov vurğulayıb ki, hələ müharibədən öncə Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer almışdı:* "Bütün bu faktlar Pakistan və Azərbaycan orduları arasında təcrübə mübadiləsinin bütün tərəflər üçün faydalı olacağını göstərir. Görüşlər zamanı əldə olunan razılaşmalar iki dövlət arasında hərbi əməkdaşlıq sahəsində yeni bir səhifə açacaq, birgə uğurlar üçün təməl olacaq".

**İsmayıl Qocayev**

# Proses gedir, nəticə olacaq



## Vaxt gələcək Azərbaycan PUA-ları da dünyada sözünü deyəcək

**"Rəsmi Ankara ilə rəsmi Bakı arasında yeni əməkdaşlıq layihələri çərçivəsində Azərbaycanda zərbə PUA-ları istehsalı üçün fabrik üzərində işləyirik".**

Bu barədə Antalya Diplomatiya Forumunda çıxışı zamanı Türkiyənin Müdafiə Sənayesi Komitəsinin rəhbəri İsmail Dəmir məlumat verib.

"Madam ki, Azərbaycan haqqında "bir millət, iki dövlət" deyirik, düşünürük ki, belə də davranmalıyıq. PUA nümunəsini götürək. Orada bir PUA fabrikinin yaradılması nə qədər təsirli olardı, mənbələrimizdən çox səmərəli istifadə etməliyik".

**Hərbi ekspert Ramil Məmmədli Azərbaycanın silah bazarında uğur qazana bilib-bilməyəcəyinə dair fikirlərini "Şərq"lə bölüşüb.**

O bildirib ki, Azərbaycan müdafiə sənayesi kompleksi yarandığı ilk dövrlərdə rəqəmsal sistem və müasir texnologiyalara əsasən hərbi təyinatlı məhsulların istehsalını qarşısına məqsəd qoyub: "Bunlardan biri də PUA-ların yaradılması idi. Dövlətimiz bu istiqamətdə İsrail şirkətləri ilə əməkdaşlıq etdi və "AZAD Systems" adlı şirkət yaradıldı. Həmin şirkətin istehsal müəssisəsində orbitor PUA-larının istehsalı həyata keçirilməyə başlandı. 2016-cı ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsalat müəssisələrində zərbə PUA-larının yaradılmasına başladı. Ümumiyyətlə, nazirliyin bazalarında yaradılan bir çox məhsul dünyanın müxtəlif ölkəsi üçün nümunə hesab oluna bilər. Dövlətimiz qısa müddətdə silah bazarına milli silahlarımızı təqdim etdi".

*R.Məmmədlinin sözlərinə görə, bu gün PUA-larımız dünya bazarına çıxarılıb:* "Azərbaycan Silahlı Qüvvələrinin PUA parkı var. Burada İsrailin "Heron", "Hermes", "Harop" PUA-ları yer alır. Eyni zamanda Türkiyədən alınan silahlı PUA-ları da qeyd etmək olar. Parkda əsas yerlərdən birini də Azərbaycan Müdafiə Sənayesi Nazirliyində yaradılan PUA-lar tutur. Nəzərə almalıyıq ki, Azərbaycan bu sahədə yenidir. Lakin əsas məqsəd yaradılma prosesinin həyata keçirilməsidir. Bu gün də həmin proses davam etdirilir".

**Yeganə Bayramova**

# Azərbaycanın bütün strategiyası doğru çıxdı

## Ermənistan bundan sonra reallığı qəbul edib, əməkdaşlıq platformalarına qoşulacaq



Xəbər verdiyimiz kimi, iyunun 20-də Ermənistanda növbədənkənar parlament seçkiləri keçirilib. Paşinyanın partiyası 53,92 faiz səslə (687 251 seçici) qalib gəlib. Əslində seçkinin nəticələri Azərbaycanın və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin qələbəsidir. Prezident İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan siyasəti sayəsində Azərbaycan güclü dövlətə, regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrildi, ölkəmizin maliyyə imkanları, iqtisadi potensialı, hərbi gücü artdı. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz prinsipial mövqeyi ilə seçilən və yüksək nüfuza malik ölkəyə çevrildi.

Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti nəticəsində Ermənistan regionun siyasi və iqtisadi həyatından kənarda qaldı. Ölkənin iqtisadiyyatı çökdü, əhalinin sosial durumu ağırlaşdı, Ermənistan xarici yardımdan asılı vəziyyətə düşdü.

**Baş verənləri "Şərq"ə şərh edən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Ermənistandakı son seçkilərin nəticəsi Azərbaycanın illərdir həyata keçirdiyi strategiyanın bir hissəsidir:** "Məlumdur ki, Birinci Qarabağ müharibəsindən sonra şərtlər Ermənistanın xeyrinə idi. 1997-ci ildən sonra danışıqlar prosesi dəyişdi. Sonrakı dövrlərdə isə Azərbaycan Ermənistana qarşı blokada siyasətini həyata keçirdi. 2003-cü il Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra bu proses daha aktivləşdi. Prezident İlham Əliyev bütün sahələrdə inkişafımıza xüsusi diqqət yetirirdi, hərbi sferada güclənməyimiz üçün lazımi addımlar atıldı. Zaman keçdikcə inkişafımız Ermənistanın bir çox prosesdən kənarda qalmasına səbəb oldu. Regiondakı layihələrdə iştirak edə bilmədilər. Beləliklə, bütün dünya ölkələri regionda əsas ölkə olaraq Azərbaycanı qəbul etdi. Prosesin davamı olaraq Azərbaycan Prezidenti Ermənistanı bütün sahələrdə "bağladı", çıxış yolu qoymadı. Bu da Ermənistanın daxilində sosial-iqtisadi geriliyə, ordunun zəifləməsinə səbəb oldu. Beləliklə, erməni xalqının beynində bir oyanma yarandı. Yəni illərdir Qarabağ üzərindən hakimiyyətə gələnlər xalqın qanını sovurub, onları ac yaşadıblar. 2016-cı il aprel döyüşlərində Ermənistan anladı ki, uzun illər ərzində onların təbliğ etdiyi güclü ordu mifi dağıldı. Artıq ermənilər başa düşürdülər ki, onlar Qarabağın işğalda olması ilə ciddi təzyiq altındadırlar. Nəhayət, 2020-ci il İkinci Qarabağ müharibəsində Azərbaycan qələbə qazandı. Məğlub olan Ermənistanda sosial-siyasi, iqtisadi və hərbi vəziyyət ağırlaşırdı. Bu zaman növbədənkənar seçkilər keçirməyi qərara aldılar".

*Analitikin fikrincə, məlum oldu ki, erməni xalqı artıq müharibə istəmir və məğlub olmuş Paşinyanı yenidən seçirlərsə, deməli, müharibədən uzaqlaşmağı düşünürlər:* "Əhali 2018-ci ildə məhv edilmiş "Qarabağ klanı"nın geri qayıtmasına qarşıdır. Azərbaycanın uzun illər ərzində apardığı strategiya nəticəsində erməni xalqı daha revanşizmə dəstək vermir, həmçinin 44 günlük müharibədə Azərbaycan qələbə qazandı. Artıq anladılar ki, Azərbaycanla anormal ideologiyalar üzərindən mübarizə aparmaq mümkün deyil. Əksinə, özlərinə ziyan vururlar. Ermənistan bundan sonra regiondakı reallığı qəbul edəcək. O cümlədən təklif olunan əməkdaşlıq platformalarına qoşulacaq. Azərbaycan Prezidentinin uzun illər həyata keçirdiyi siyasət məhz buna hesablanmışdı".

**Yeganə Bayramova**

## Üç ölkənin XİN rəhbəri Azərbaycana gəlir

**Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirləri Azərbaycana səfər edəcək.**

Bunu Rumıniya XİN başçısı Boqdan Aresku öz "Twitter" hesabında yazıb. Avropa İttifaqının (Aİ) Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozef Borelin mandatı əsasında Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirləri iyunun 24-26-də Ermənistan, Azərbaycan və Gürcüstana səfər edəcək.

## Minalanmış ərazilərin xəritəsini Ara Ayvazyan gizlədirmiş

### Buna görə əsir məsələsini mayın 27-dək həll etmək mümkün olmayıb

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan sabiq xarici işlər naziri Ara Ayvazyanı əsirlərin qaytarılması prosesini əngəlləməkdə ittiham edib.**

A. Qriqoryan "Azdlıq" radiosunun erməni redaksiyasına müsahibəsində bildirib ki, əsir məsələsini mayın 27-dək həll etmək mümkün olmayıb.

"Ayvazyan bizim tərəfdaşlara deyirdi ki, guya minalanmış ərazilərin xəritəsi mövcud deyil, hansıları ki, artıq o, istefa verəndən sonra biz qarşı tərəfə verdik. Ayvazyan istefa verəndən sonra məsələ həll olundu", - deyə o qeyd edib.

A. Qriqoryanın sözlərinə görə, A. Ayvazyan təkcə yalan danışmayıb, həm də əsirlərin qaytarılması prosesini əngəlləyib.

A. Qriqoryan hesab edir ki, sabiq nazirin təhlükəsizlik məsələlərini həll etmək istəyi olmayıb və o, yalnız Baş nazir əvəzi Nikol Paşinyanın siyasi komandası üçün problemlər yaratmaq məqsədi güdüb: "Bizdə suallar yaranır, necə oldu ki, problem uzun müddət həll olunmurdu, Ara Ayvazyan istefa verən kimi və danışıqlarda iştirakı dayanan anda məsələ həllini tapdı?"

Ermənistan hakimiyyətinin mina xəritələrini əsirlərin qaytarılması qarşılığında təhvil verməyə hazır olub-olmaması barədə suala cavabında A. Qriqoryan istənilən konstruktiv addıma analoji qaydada cavab verməyə hazır olduqlarını deyib.

# "B planı" baş tutdu

## Rusiya Paşinyanın qələbə qazanmasında maraqlı olub

Ermənistanda 2 il 6 ay 9 gündən sonra növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərin nəticələrinə görə, Nikol Paşinyanın başçılıq etdiyi Vətəndaş Razılaşması Partiyası qalib gəlib. Qeyd edək ki, seçkilərdə 4 siyasi partiya və 21 siyasi blok iştirak edib. 2 milyon 578 min seçicidən 1 milyon 281 min 174 nəfəri, yaxud seçicilərin 49,4 faizi səsvermədə iştirak edib.

Bəs seçkilərdə Rusiya kimin tərəfində idi? Rusiya Nikol Paşinyanın seçilməsini istəyirdimi və seçkilərin hazırkı nəticələri onu qane edirmi?

**Sualımızı cavablandıran Ədalət Partiyası sədrinin müavini, politoloq Elxan Şükürlü "Şərq"ə açıqlamasında vurğulayıb ki, Nikol Paşinyanın 20 iyun seçkilərində qalib gələcəyi, yenidən Ermənistanın Baş naziri seçiləcəyi gözlənilən idi.** O qeyd edib ki, bu, ilk baxışdan nə qədər paradoksal görünsə də, elə Rusiyanın da marağında idi: "Çünki Rusiyanın dəstək verdiyi siyasi qüvvələrin noyabr və dekabr aylarında, ən sonda isə hərbçilərin fevralın sonunda Paşinyanı devirmək və seçkilərə getmək cəhdləri uğursuzluqla nəticələnmişdi. Bu səbəbdən Rusiya mart ayından etibarən, Ermənistanda siyasətini dəyişməyə və "B planı"na keçidə məcbur qaldı - öz qüvvələrinin Paşinyanın nəzarəti altında erkən seçkilərə getməsinə razılaşdı. Xatırlayırsınızsa, məhz mart ayının ortalarında Paşinyan iyunda növbədənkənar seçkilərə gediləcəyini açıqladı və aprelin əvvəlində isə Putinlə görüşə yollandı... Mənim təxminlərimə görə, Paşinyanın aprelin 7-də Putinlə görüşündə əsas məsələlər, o cümlədən də seçkilərlə bağlı atılacaq addımlar razılaşdırılmışdı. Böyük ehtimalla, bu görüşdə Paşinyan 10 noyabr və 11 yanvar razılaşmalarının icrasını seçkilərdən sonra yerinə yetirmək, həmçinin Rusiyayönümlü qüvvələri əsas müxalif siyasi güc kimi parlamentə keçirmək öhdəliyi götürüb və bunun qarşılığında da Rusiyadan hansısa zəmanətlər alıb".




**E.Şükürlü əlavə edib ki, 20 iyun seçkilərinin gedişi və nəticələrə reaksiyalar da göstərir ki, Rusiya bu mərhələ üçün məhz Paşinyanın qələbə qazanmasında, onun Baş nazir kimi imzaladığı 10 noyabr və 11 yanvar razılaşmalarının icrasını təmin etməkdə maraqlı olub:** " Rusiya özünə gərəkli olan, üzərində hansısa planlar qura biləcəyi əsas siyasi fiqurlarının hamısının - Koçaryanın, Sarkisyanın, Vanetsiyanın və tərəfdarlarının artıq yeni Ermənistan parlamentində təmsilçiliyinə nail olub. Bundan sonra Paşinyan öhdəliklərindən yayınacaqsa, Rusiya parlamentdəki müxalifətin əliylə ona daha ciddi təzyiq etmək imkanı qazanacaq. Eyni zamanda, 10 noyabr və 11 yanvar razılaşmalarının icrası Paşinyanın nüfuzdan düşməsinə səbəb olacaqsa da, ehtiyat fiqur kimi həbsdən çıxarılıb parlamentdə əyləşdirilən Koçaryanı daha asan yolla hakimiyyətə gətirmək olacaq. Fikrimcə, Ermənistandakı seçkilərin hazırkı nəticəsi Rusiyanı tam qane edir".

**Aynurə Pənahqızı**

# Nazirlər Kabinetinin qərarı ilə razılaşmırlar

Azərbaycanda iş və xidmət sahələrində 1 avqust tarixindən etibarən COVID-19 pasportu tələb olunacaq. Nazirlər Kabineti bununla bağlı "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərarında müvafiq dəyişiklik edib.

Qərarda qeyd edilib ki, iyulun 1-dən etibarən isə COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19-a qarşı birinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatına malik olması lazımdır. Xatırladaq ki, əvvəlki qərara əsasən, iyulun 1-dən etibarən COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatı tələbi müəyyən edilən iş və xidmət sahələrinin işçilərinin ən azı 80 faizinin belə pasporta və ya sertifikata malik olması tələb olunurdu.





**Azər Rəşidoğlu:** *“Çoxsaylı hüquqşünaslarla məsləhətləşdim və belə tələbin qanuna zidd olduğunu bildirdilər”*



**Novella Cəfəroğlu:** *“Heç kimi peyvəndlənməyə məcbur etmək olmaz”*

**”Tolerantlıq” Sosial Araşdırmalar İctimai Birliyinin sədri Azər Rəşidoğlu sosial şəbəkədə məsələyə münasibət bildirib:** ”Qanunlar qarşısında boynumuz qıldan incədir. Peyvəndləmə məcburi ola bilməz. Heç kəs və heç bir qurum vətəndaşı buna məcbur edə bilməz, bu tələbin özü Konstitusiyaya ziddir. Çoxsaylı hüquqşünaslarla məsləhətləşdim və belə tələbin qanuna zidd olduğunu bildirdilər. Müəssisələr qarşısında da belə tələb qoyula bilməz. Yalnız bir halda - ”Covid-19” virusuna yoluxmuşamsa, başqasını bilərəkdən yoluxdurmam məsuliyyət yaradır. Əgər sağlam olduğum barədə arayış təqdim edərəmsə, heç bir məcburi peyvəndləmədən söhbət belə gedə bilməz. NK-nın bu gün verdiyi qərarda da məcburi peyvəndləmədən söhbət getmir. Sadəcə, elə şərait yaradılır ki, vətəndaş peyvəndlənsin. Lakin əksini edəni heç bir məsuliyyət gözləmir və vadaretmə məhkəmə predmeti yaradır”.

**Mövzu ilə bağlı hüquq müdafiəçisi Novella Cəfəroğlu ”Şərq”ə fikirlərini bölüşüb.** O, açıqlamasında bir hüquq müdafiəçisi kimi məcburi peyvəndləmənin əleyhinə olduğunu bildirib: ”Nazirlər Kabinetinin verdiyi qərarla razı deyiləm. Hesab edirəm ki, bu, düzgün qərar deyil. İlk növbədə insanın özü seçim etməlidir. Kim istəyir yaşasın, istəmir də yaşamasın. Amma nəzərə alaq ki, cəmiyyətin qorunması üçün peyvəndin olunması vacibdir. Təbii ki, heç kəsi məcbur etmək olmaz ki, vaksinasiya olunsun. İlk növbədə hər kəs özü məsuliyyət daşımalıdır. Çünki cəmiyyətə çıxır və ətrafdakı insanları yoluxdura bilər. Ona görə də insanlar çalışdıqları qədər vaksinasiyaya getməlidirlər. Özünü qorumaq üçün yox, ətrafı qorumaq üçün”.

N.Cəfəroğlu yoxlanılmadan həyata keçirilən peyvəndlənmə məsələsinə də toxunub: ”Bir məsələni də qeyd edim ki, bu günləri Azərbaycanda birbaşa yoxlanmamış hamıya iynə vururlar. Bir hüquq müdafiəçisi kimi bunu düzgün hesab etmirəm. Biz də hər şeyi əcaib formada edirlər. Bu, insanların qorunmasına mənfi təsir edə bilər. Çünki elə insanlar var ki, təzyiqi, ürək problemləri və s. var. Bunlar yoxlanılmalıdır, ondan sonra vaksinasiya edilməlidir. Amma bizdə birbaşa hamını çağırıb vaksinasiya edirlər. Bu da düzgün deyil”.

**Aynurə Pənahqızı**

# Ermənilərin xilas yolu Azərbaycana sıx inteqrasiyadan keçir




## “Regionda istənilən qarşıdurma cəhdləri Şuşa Bəyannaməsinə toxunaraq şüşə kimi sınacaq”

**”Forpost Ermənistandakı bütün seçkilər kimi iyunun 20-də baş tutan seçki də siyasidən çox geosiyasi mahiyyətliydi”.**

Bu sözləri millət vəkili Sahib Alıyev parlamentin iclasında səsləndirib. Deputat vurğulayıb ki, Şuşa Bəyannaməsinin varlığı Robert Koçaryana verilən dəstəyi ikinci Qarabağ savaşında sərgilənən ”neytrallıq” çərçivəsində saxladı: ”Ermənistada seçki prosesi yumşaq senari üzrə getdi, ən pisin yox, pislərin yaxşısının seçilməsinə şərait yaradıldı. Seçkidə mandat qazanan bloklardan heç birinə verilən səslər dəstək xarakteri daşımırdı. Çünki hakimiyyətə əsas iddialıların hamısının antireytinqi reytinqlərindən qat-qat üstün idi. Paşinyanın qazandığının çoxu ”Qarabağ klanı”na, Koçaryanla Sarkisyana verilən səslərin əksəriyyəti isə savaşı uduzmuş Paşinyana nifrət səsləriydi. Səslərin bu cür bölgüsü reallığı əks etdirir. Ona görə əks etdirir ki, ermənilər başlarına gələn fəlakətdə ölkəni savaşa sürükləyən Paşinyandan daha çox, Koçaryanla Sarkisyanın rolunun olduğunun fərqindədirlər. Yəqin Xankəndidəkilər də Ermənistanda özlərinə qarşı nifrətin kökündə məhz həmin cütlüyün durduğunu bilməmiş deyillər”.

**Parlament üzvü qeyd edib ki, ermənilərin qurtuluşu qonşularla əməkdaşlıqdan asılıdır:** ”Ermənilər xilas yollarının məhz Azərbaycana sıx inteqrasiyadan keçdiyini, Konstitusiyamıza sığınaraq yaşamaq olduğunu anlamalıdırlar. Dərk etməlidirlər ki, onların da xilaskarı cənab İlham Əliyevdir. Nə qədər tez anlasalar, bir o qədər özləri üçün əlverişli olacaq. Ermənilərdən geosiyasi məqsədlərlə faydalanmağı düşünənlər də anlamalıdırlar ki, regionda istənilən qarşıdurma cəhdləri Şuşa Bəyannaməsinə toxunaraq şüşə kimi sınacaq. Şuşa Bəyannaməsi region üçün sülhdən başqa ayrı seçim buraxmır”.

**İsmayıl**



# Azərbaycan ordusu türk ordu modelinə keçir

## NATO ilə əlaqələrin genişlənməsi də bu işə xidmət edir

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycanda səfərdə olan NATO-nun İzmirdə yerləşən Quru Qoşunları Komandanlığının Qərargah rəisi, diviziya generalı Metin Tokelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonağı salamlayan Z.Həsənov Azərbaycan-NATO əlaqələrinin uğurla inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və hərbi qulluqçularımızın Əfqanıstandakı ”Qətiyyətli Dəstək” Missiyasına verdiyi töhfəni diqqətə çatdırıb.

Diviziya generalı M.Tokel Alyansın Azərbaycanı etibarlı tərəfdaş hesab etdiyini xüsusi qeyd edib. O, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

**Görüş barədə ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Azərbaycanın NATO ilə əməkdaşlığı 1997-ci ildən başlayıb:** ”Azərbaycan bu günə qədər demək olar ki, NATO-nun bütün sülhməramlı fəaliyyətində iştirak edib. Eyni zamanda ölkəmizin hava məkanı davamlı olaraq NATO sülhməramlı fəaliyyətlərinin həyata keçirilməsi üçün açıq elan olunub. Digər tərəfdən Azərbaycan həm də ABŞ ilə NATO çərçivəsində Əfqanıstandakı sülhməramlı fəaliyyətlərin təmin edilməsi üçün logistik mərkəz rolunu oynayıb. Yəni həmin təyyarələrin yanacaq və müxtəlif ləvazimat daşınmasında ölkəmizdən istifadə olunub. Ordumuzun Vətən müharibəsindən sonra kiçik türk ordu modelinə uyğunlaşdırılması mesajını da xatırlayırıq. Türk ordu modeli dedikdə o başa düşülür ki, Türkiyə NATO-nun ikinci ən güclü ordusudur. Dolayısı ilə bu, həm də ordumuzun NATO standartlarına uyğunlaşdırılması prosesinin başlamasına işarə idi. Bu görüş məhz Azərbaycanın türk ordu modelinə keçidi, NATO ilə əməkdaşlığın daha da inkişafına xidmət edir. Belə görüşlərin gələcəkdə daha da artacağını gözləmək mümkündür. Yaxın günlərdə ABŞ-ın Azərbaycandakı səfiri də ölkəmizi etibarlı tərəfdaş adlandırmışdı. Bu zaman ortaya belə bir mənzərə çıxır: Azərbaycanla NATO əlaqələri gələcəkdə daha da inkişaf edəcək”.

**Yeganə Bayramova**

# “Qarabağda risklər qalır”

## Hasan Oktay: “Sülhməramlıların olduğu bölgə eyni ilə Donbass kimi Rusiyanın nəzarətində qala bilər”



Regiondakı geosiyasi durum olduqca dinamikdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri, orada verilən mesajlar, İranda və Ermənistanda keçirilən seçkilər, Qərbin bölgədəki marağının artması yeni, maraqlı proseslər vəd edir. Əlbəttə, təlatümlər də istisna deyil. Cənubi Qafqaz nəhəng "dalğa"ya hazır olmalıdır. Kimin, hansı dövlətin bu "dalğa"nı dəf edəcəyi, hansının "boğulacağı" isə hələlik sual altındadır. Bir məsələ aydındır: diqqətli, ehtiyatlı və güclü olmaq lazımdır.

*Qafqaz Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, professor Hasan Oktay son proseslərlə bağlı ”Şərq”in suallarını cavablandırdı:*

**- İrandakı prezident seçkilərinin nəticəsini necə qiymətləndirirsiniz?**

- Gözlənildiyi kimi, İbrahim Rəisi qalib gəldi. İranın yaxın gələcəkdə Türkiyə vasitəsilə dünya siyasətinin bir parçası olacağı müzakirə mövzusudur. Dini lider Xamneyi öləndən sonra İbrahim Rəisi, çox güman, həm də onun vəzifəsini icra edəcək. Nəzərinizə çatdırım ki, Türkiyə, İran və Rusiyanın son 150 illik tarixi bir-birinə çox bənzəyir. Bu oxşarlığı nəzərə alsaq, Rusiyada yaxın zamanda siyasi rejimin dəyişəcəyini gözləmək olar. Rusiya Prezidenti Vladimir Putin amerikalı həmkarı Co Baydenlə görüşündə bunun anonsunu verib. Proseslərlə əlaqədar İranın ABŞ-la yaxınlaşması Azərbaycan və Türkiyə üçün arzuolunan deyil.

**- Məlum olduğu kimi, Ermənistandakı parlament seçkilərində Nikol Paşinyan qalib gəldi. Bu, Qarabağ məsələsinin gələcəyi üçün nələr vəd edir?**

- Paşinyanın qalib gələcəyi təəccüblü olmadı. Hətta, ola bilsin, ssenari əvvəlcədən Rusiya ilə razılaşdırılmışdı. Moskvanın istədiyi Ermənistanda zəif iqtidarın, güclü müxalifətin olmasıdır. Paşinyanın qalib gəlməsi ilə regionda ABŞ-ın təsir gücü artdı. Amma Qarabağla bağlı ciddi risklər var.

**- Hansı risklər?**

“Kreml Zəngəzur dəhlizinin açılmasına dair sənədə qol çəksə də, əməldə buna mane olur”



- Qarabağ eyni ilə Donbass kimi Rusiyanın nəzarəti altında qala bilər. Əvvəllər Qarabağ işğal altında olsa da, Azərbaycan ərazisi kimi tanınırdı. İndi isə rus sülhməramlıların nələr edəcəyi hələ məlum deyil. Xüsusilə Rusiya-Fransa ittifaqı Qarabağda ciddi problemlər yarada bilər. Odur ki, çox diqqətli olmalıyıq.

**- Şuşa Bəyannaməsində də əksini tapan Zəngəzur dəhlizinin açılması məsələsi nə qədər reealdır?**

- Azərbaycan və Türkiyə dövlət başçılarının imzaladıqları həmin sənəddəki bir çox müddəalar əslində 10 noyabr razılaşmasındakı şərtləri gündəmə gətirmək üçün idi. Rusiya rəsmiləri iki dövlət arasında hansısa hərbi ittifaqın onlara qarşı olacağını iddia edirlər. Məhz bu gərginliyə görə Laçın dəhlizi əvəzində Zəngəzur dəhlizinin açılması məsələsi təxirə salına bilər. Çünki Kreml sözügedən kommunikasiya xəttinin açılmasına dair sənədə qol çəksə də, əməldə buna mane olur. Həmçinin İran da dəhlizin açılmasına qarşıdır. Sadaladığım əngəllərə rəğmən, Azərbaycan və Türkiyənin qətiyyətli mövqeyi sayəsində dəhliz gec-tez açılmalıdır.

**- Bəs ”Altılıq platforma”sının yaranması?**

- Bu məsələ hələlik real deyil. Belə ki, həmin birliyi təşkil edən ölkələrin regionla bağlı maraqları, mənfəətləri fərqlidir. 2008-ci ildə də oxşar məsələ gündəmə gətirilsə də, baş tutmamışdı. Ona görə də Türkiyə-Azərbaycan-Ermənistan üçtərəfli təmasları ilə əvvəlcə regiondakı əsas problemləri həll etmək lazımdır.

**- İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın Şuşada eyham vurduqları Xankəndinin taleyi necə olacaq?**

- Bayaq da dediyim kimi, Rusiya Qarabağda Donbass modelini tətbiq etməyə çalışacaq. Məqsəd regionda daha uzun müddət qala bilməkdir. Ermənistan parlamentində rus dilinin ikinci dövlət dili olması barədə qərarın qəbulu, Rusiyanın orada yaşayanlara öz pasportunu paylaması və ”sülhməramlıların” sayının hər ötən gün artması optimist proqnoz verməyimizə mane olur.

**- Təhlükəli senarinin qarşısını necə ala bilərik?**

- Əlbəttə, məsələyə kompleks yanaşmaq lazımdır. Sadəcə, bir məqama köklənmək doğru olmaz. Lakin buna diqqət çəkmək istəyirəm: Dövlət Baxçalının Şuşada orta məktəb tikmək layihəsi alınmadı. İndi isə Şuşada türk dünyasını təmsil edən universitet inşa edilməlidir. Əks halda Qarabağda Azərbaycanın ərazi bütövlüyü və xalqın rifahı tam təmin olunmayacaq və risk həmişə qalacaq.

**Kənan Novruzov**



# Deputatlar vətəndaş təşəbbüsünü bəyəniblər

## Novruz bayramı Gürcüstanda da milli bayram kimi qeyd oluna bilər

**Gürcüstan parlamentinin İnsan haqları və vətəndaş inteqrasiyası Komitəsində ölkədə Novruzun milli bayram elan olunması ilə bağlı qanunvericilik təşəbbüsünə baxılıb.**

Müzakirələr zamanı deputatlar vətəndaş təşəbbüsünü müsbət qiymətləndiriblər. Komitə sədri Mixeil Sarcveladze isə bildirib ki, təklif kifayət qədər əsaslandırılmayıb və əlavə arqumentlər tələb edir. O, məsələ ilə bağlı müzakirələrin davam etdirilməsinə ehtiyacın olduğunu vurğulayıb. Komitə üzvləri qanun layihəsinin müzakirəsinə təşəbbüskarların da dəvət olunması və onların da fikirlərinin öyrənilməsi təklifi ilə çıxış ediblər. Qeyd edək ki, layihənin müəllifi ictimai fəal Samirə Bayramovadır. Sənəddə martın 21-nin Gürcüstanda qeyri-iş günü elan edilməsi təklifi də yer alıb.

**Tarixçi-alim Kərəm Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, Tiflis şəhəri 1801-ci ilə kimi müsəlman şəhəri olub. K.Məmmədov qeyd edib ki, hətta gürcü çarları çap etdikləri pulun bir tərəfində ”La ilahə illəllah” yazdırırdılar:** ”Gürcüstanda hər il Novruz bayramı qeyd edilir. Novruz bayramı şənliklərinə gürcülər də qoşulur və baharın gəlişini birgə qeyd edirlər. İndi təbii ki, Gürcüstan parlamentində Novruzun milli bayram elan olunması ilə bağlı qanunvericilik təşəbbüsünə baxılıb. İnanıram ki, gürcü həmkarlarımız gələcəkdə Novruz bayramının qeyd olunmasını və önəmini anlayarlar”.

**Aynurə Pənahqızı**

# Razi Nurullayev təklif səsləndirdi

## Müharibədə yaralanmış hər bir gəncə 500 manat pul verilsin

### Musa Quliyev: “Təklif humanist ola bilər, amma həyata keçirilməsi mümkün deyil”

**”44 günlük döyüşlərdə təxminən 11 min civarında yaralanmış müharibə iştirakçısı var. Onlardan təxminən 4500-5000 nəfərinə əlillik dərəcəsi veriləcək. 6 min əlillik dərəcəsi düşməyən yaralanmış şəxs qalacaq”.**

Bunu Milli Məclisin dünənki iclasında millət vəkili, MCP sədri Razi Nurullayev deyib. Deputat bildirib ki, yaralıların tam əksəriyyəti gənclərdir: ”Gənclərin tam əksəriyyəti hələ peşəsini, gələcək həyatını da müəyyənləşdirməyib. Yaralanmış müharibə iştirakçılarının hər birinə dəstək kimi 5 il ərzində ayda 5 beş yüz (500) manat pul verilsin. Bu 5 ildə onlar özlərinə bir peşə, iş-güc, güzəran qurarlar. Bu, çox vacib məsələdir və mütləq rəsmi münasibət bildirilməlidir. Əks halda onların bədən yarasını sağalda bilərik, amma mənəvi yaralarını yox. Əlavə olaraq, bu təklifimi bir də səsləndirmək istəyirəm. Müharibə iştirakçılarının demək olar ki, əksəriyyəti peşəsizdir, ali savadları yoxdur deyə normal işə düzələ bilmirlər. Müharibə iştirakçılarının təhsilə, peşəyə cəlb olunmasına ciddi ehtiyac var. Mənim iş adamları ilə təmasım olur, xahiş etməkdən yorulmuşuq ki, işə götürsünlər. Bir həmkarım 3 nəfəri, o biri 5 nəfəri xahiş edir. Şirkətlər də "bezrazmer corab" deyil axı. Üzə düşüb təhsilsiz, peşəsiz müharibə iştirakçısını işə götürürlər. Bir aydan sonra işdən azad edirlər və bu da ciddi narazılıq yaradır”.

**R.Nurullayev bildirib ki, mütləq təhsil və peşə olmalıdır:** ”Təhsil müəssisələri 50-100 nəfərə bilik və peşə versinlər. Dövlət də onların haqqını ödəsin. Deməyək ki, pul yoxdur. Vallah, sonunda o insanları şər qüvvələr yanlarına çəkib dövlətə qarşı istifadə edəcəklər”.

**Millət vəkili Musa Quliyev isə bildirib ki, 500 manat müavinət verilməsi təklifi qanunvericilik baxımından mümkün deyil:** ”Müharibədə iştirak edən, əlillik verilməyən insanların məşğulluğu təmin edilməlidir. Təklif humanist ola bilər, amma həyata keçirilməsi mümkün deyil. Həmin qazilər sağalıb, deməli, işləyə bilərlər. Bunun üçün ”Məşğulluq marafonu” həyata keçirilir. İlin sonuna kimi biz bu insanların məşğulluğunun təmin edilməsinə çalışacağıq”.

**İsmayıl**





# Operativ Qərargah xalqın əsəbi ilə oynayır

## Toylara icazə verilməsəydi bundan daha yaxşı olardı

Nazirlər Kabineti yanında Operativ Qərargah 2021-ci il iyulun 1-dən şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsinə icazə verib. Yeni qərara əsasən şənlik mərasimləri 50 nəfərdən 150 nəfərə qədər şəxslərin iştirakı ilə təşkil oluna bilər. Həmçinin, yaşı 18-dən yuxarı olan bütün şəxslərin iştirakına yalnız COVID-19-a qarşı tam peyvənd olunması və ya COVID-19-dan sağalaraq immunitetə malik olması barədə təsdiqedici sənəd (bundan sonra - COVID-19 pasportu) olduğu halda icazə verilir və şənlik mərasimlərində iştirak edən qonaqlar üçün tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə tələbi ləğv edilir.

Şənlik mərasimində xidmət göstərən heyətin (musiqiçilər istisna olmaqla) tibbi maskalardan, əlcəklərdən və digər fərdi qoruyucu vasitələrdən istifadəsi məcburidir. Şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi tərəfindən həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumat müvafiq portala (icaze.e-gov.az ) daxil edilməlidir. Portal 2021-ci il 26 iyun tarixindən etibarən müvafiq məlumatları daxil etmək üçün aktiv ediləcək. Keçiriləcək tədbirin tarixinə ən azı 5 gün qalmış tədbirin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 0:00-dan gec olmamaq şərtilə), qonaq sayı barədə məlumatlar portala daxil edilməlidir. Portal üzərindən qeydiyyata salınmayan və barəsində müvafiq məlumat daxil edilməyən şənlik mərasimlərinin keçirilməsi qadağandır.

Qeyd olunur ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cə-

### Yeni qərarın şərtləri ictimaiyyətin ciddi narazılığına səbəb oldu

rimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan on bir min manatadək məbləğdə cərimə edilir. Hüquqi şəxslər tərəfindən pozuntu halı təkrar baş verdiyi təqdirdə şənlik mərasimi keçirilən müəssisənin fəaliyyətinin dayandırılmasına dair qanunvericiliklə müəyyən edilmiş hallarda qərar qəbul edilə bilər.

**Tanınmış jurnalist Əzizə İsmayılova sosial şəbəkədə qərara etirazını bildirib:** "Toylara icazə verilməsi ilə bağlı qərarın şərtlərini hazırlayanlar dəqiq nə yazdıqlarını düşünüb, götür-qoy ediblər? Yoxsa illah ki, "cərimə olunmaq üçün ən optimal əl yerini necə qoya bilərik" sualına cavab tapıblar?... Ciddi sözümdür, Nazirlər Kabineti Yanında Operativ Qərargah, "toyda 50 nəfərsinizsə, maska taxmalısınız", "150 nəfərə kimisinizsə peyvənd pasportunuz olmalıdır" filan deməklə bizimlə zarafat edirsiniz? Bəlkə biri peyvənd oluna bilməz - səhhəti icazə vermir, südəmər uşağı var, yaşı 80-ni haqlayıb, toya necə getməlidirlər? Yoxsa toya adam çağıranda deyək ki, ancaq pasportlular gəlsin? Siz ciddisiniz ciddidən? Əgər belə bir tələbiniz olacaqdısa, niyə Şahmar müəllim "toylara icazə veriləcək" anonsunu verəndə, millətə elan etmədiniz və bu günə kimi də elan etmirsiniz ki, "ay millət, peyvənd məcburidir. Gedin hamınız peyvənd olunun!"... Peyvəndin adını "könüllü" qoymusunuz, hər yerdə də tələb edirsiniz. Mən peyvənd olunmuşam, peyvəndlə bir dərdim yoxdur. Amma bu məcburidirsə və qaçılmazdırsa, olmaz ki, bunu insanlara vaxtında izah edəsiniz, elan edəsiniz? Maska ilə toyda yemək yemək, rəqs etmək olar? Yənı necə əsaslandırırsınız bu tələbi? Həyatı burnumuzdan gətirməkdə niyə bu qədər qərarlısınız, bir bilsək...".

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı bildirib ki, bu çox pis qərardır:** "Bundansa heç icazə verməyəydilər. Bu şərtlər, tələblər hansı məntiqə söykənir? Necə olur restoran-kafelərə aid olmur maska, vaksin pasportu? Amma toy edilən restoranlara aid olur. Bu nə biabırçılıqdır. İnsanlar ağızlarında maska su içib, yemək yeyəcəklər? Və ya vaksin olunmayan şəxs öz övladının toyuna gedə bilməyəcək? Burada yeganə şərt qoyula bilər - məsafə şərti. Masa və stullar müəyyən məsafədə qurula bilər. Digər heç bir şərt və qadağa qoyula bilməz. Bu da kitabxana deyil ki, hər yeri açıb oranı bağlı saxlayasınız. Bu Operativ Qərargah biabırçı qərarları hardan tapıb çıxarır və məqsədi nədir? Bu biabırçılıqlara son qoyulmalıdır. Dünyanı özümüzə güldürməyimiz yetər".

**Aynurə Pənahqızı**

# Fazil Mustafa Bakının böyük dərdini anlatdı

## "Binalar elə tikilib ki, ora yanğınsöndürən, təcili tibbi yardım maşını girə bilmir"



**Millət vəkili Fazil Mustafa parlamentdə çıxışı zamanı Bakı şəhərindəki mühüm problemlərdən danışıb. Deputat bildirib ki, əlbəttə, Bakı şəhəri günü-gündən gözəlləşir.**

Bakı mədəniyyət şəhəri olaraq diqqəti cəlb edir. Gələn turistlər də bunu deyir. Lakin deputatın sözlərinə görə, Bakı eyni zamanda "mədəniyyətsizlər" şəhərinə də çevrilməkdədir: "Bakıda həm də ciddi problemlər var. Dünən Yeni Yasamalda yanğın baş verdi. Yanğınsöndürənlər yanğın olan binaya gedə bilmədi. Bir ölkənin mədəniyyəti təkcə tikilən binaların fasadları ilə bilinmir, həm də orda olan insanların yaşayış səviyyəsindən ölçülür. Bunların hamısı nəticədə vətəndaşın fəlakəti ilə nəticələnir. Burada təkcə fərdi cinayətlərdən söhbət getmir. Hamı bu cinayətin iştirakçısına çevrilməkdədir. Necə ola bilər ki, sən binaların o vəziyyətdə tikilməsinə icazə verəsən? Ora nə yanğınsöndürən, nə təcili tibbi yardım maşını girə bilməsin. O binalarda yaşayanların təhlükəsizliyini düşünmürlər. Bu gün 100-lərlə vətəndaş evlərindən köçərək kirayədə qalır, amma evlərinə qayıda bilmir. Pilot layihələr tikilib qurtarmır".

**İsmayıl**



# Kimsə kimsəyə çip-filan yerləşdirmir

## Koronavirus peyvəndi dəridə maqnit effekti yarada bilməz

**Qaşığı, çəngəli, dəmirdən, alüminiumdan düzəldilmiş müxtəlif alətləri, hətta ütünü də bədənlərinə yapışdıranları çoxumuz görmüşük. Bunlar adətən sirk tamaşaları hesab edilir.**

Məqsəd cəlbedici olmaq, efirə, kütləvi tədbirlərə dəvət almaqla gəlir əldə etməkdir. İndi isə koronavirus peyvəndi vurduranların bədənində maqnit effekti yarandığını iddia edənlər ortaya çıxıb. "Milliyet.com" yazır ki, peyvənd olunduqdan sonra qaşıq, yaxud da dəmir pulu, hər hansı metal əşyanı peyvənd iynəsi vurulan hissəyə qoyduqda onların oradaca tərpənmədən qaldığını iddia edənlər var. Bir metal əşyanı qolunuzun peyvənd iynəsi vurulmuş hissəsinə qoyun, görəcəksiniz ki, oradaca yapışıb qaldı. Deyilənə görə, peyvəndlərin tərkibindəki nanoçiplər və ya digər maddələr iynə vurulan hissədə maqnit effekti - yapışqanlıq yaradır. İddiaları mütəxəssislər belə cavablandırıb. Mütəxəssislər bildirir ki, peyvəndlərin tərkibində maqnit effekti yarada biləcək hər hansı maddə yoxdur. Kimsə kimsəyə çip-filan yerləşdirmir. Amma insanlar peyvənd olunduqdan sonra mütləq duş almalı, yəni yuyunmalıdırlar. Hər insanın dərisində yapışqanlı yağ təbəqəsi mövcuddur. Bu, dərinin təbii quruluşudur. Yuyunduqda isə yağ təbəqəsi su ilə yuyulub itir. Bir müddət sonra dəri bu yağ təbəqəsini yenidən əmələ gətirir. Bu, dərinin özünü müdafiə üçün istehsal etdiyi təbii qoruyucu maddədir. Bir metal əşyanı dəriyə basaraq yapışdırmağa çalışsanız, metalla





dəri səthindəki yağ arasında zəif kimyəvi əlaqə qurulur, nəticədə metal əşya qısa bir müddət dəriyə yapışmış vəziyyətdə qala bilir. Bu cür yapışqanlığın maqnit effekti ilə heç bir əlaqəsi yoxdur. Dəriyə bir qədər pudra (körpə dərisi üçün istifadə edilən) töksək, metal əşya heç bir vaxt dəriyə yapışmayacaq. Halbuki, bədəndə maqnit çəkiciliyi olsa, pudraya rəğmən istənilən metal əşyanı saxlayar və buraxmaz. Ona görə də peyvəndlərlə bağlı hansısa mülahizələrə, şayiələrə inanmadan, peyvənd olunmaq lazımdır ki, koronavirus bəlasından qurtulaq.

**Məlahət**

# Rəisinin hakimiyyət dövrü çalxalanmalarla keçəcək



*Adətən mühafizəkarlar hakimiyyətə gələndə İranın ABŞ-la münasibətləri pisləşir*

İranda prezident seçkiləri artıq başa çatdı. Əvvəlcədən də gözlənildiyi kimi, qalib İbrahim Rəisi oldu. Seçkinin nəticəsinin bizi daha çox maraqlandıran tərəfi yeni prezidentinin rəhbərliyi dövründə bu ölkənin Ermənistanla münasibətləri fonunda Azərbaycana, eləcə də Arazın o tayındakı soydaşlarımıza münasibətinin dəyişib-dəyişməyəcəyidir.

Həmçinin, Azərbaycan-Türkiyə tandeminə qarşı necə siyasi xətt yürüdəcəyi və s. məsələlərdir. Şübhəsiz ki, İranın Ermənistana hamiliyi dəyişməyəcək və bölgədə etkili olmaq xətti daha da güclənəcək. Aydındır ki, Rəisi haqqında şərhlərin çoxu ilk növbədə tanınmış tarixçi Ervand Abramyan tərəfindən 1988-ci ilin yayında minlərlə siyasi məhbusun gizli şəkildə edam olunmasına nəzarət edən "Ölüm Komitəsi"ndə yer alan üzv olduğu vaxtlardan "qazandığı şöhrət"ə əsaslanır. Tarixçi bunu İran tarixində forma, məzmun və şiddət baxımından görünməmiş zorakılıq aktı kimi təsvir edir. İlk dəfə 2016-cı ilin avqustunda yayılmış səs yazısında bir çox iranlı indi Rəisini İran tarixinin qa-

"Gələcəkdə İranın Azərbaycanla münasibəti daha çox Qərblə İranın münasibətlərindən asılı olacaq"

ranlıq dövrü ilə bağlayırlar. Həmin lentdə Rəisi və digər komitə üzvləri edamdakı rollarına görə Ayətullah Hüseyn-Əli Müntəzirinin hücumuna məruz qalırlar. Rəisi səs yazısında o zaman ali dini rəhbərin müavini olan Müntəziri ilə 200 məhbusun edamına icazə almaq üçün mübahisə edir. Müntəziri edamları İnqilab tarixindəki ən ağır cinayət adlandıraraq, bu əməllərə haqq qazandırmaqdan imtina edir. Politoloqların bir çoxu hesab edir ki, indiki 82 yaşlı rəhbər Xameneyi Rəisinin dövründə vəfat edərsə, bu onun işinə yarayacaq. Rəisi həm dini rəhbər, həm prezidenti özündə birləşdirən potensial fars kralı olacaq. Politoloqlar hesab edir ki, Rəisinin dövründə İranın beynəlxalq münasibətlərində də dəyişikliklərin olacağı qaçılmazdır. Bəs, Azərbaycanla münasibətlər hansı formada olacaq?

**Məsələ ilə bağlı siyasi analitik Turab Rzayev "Şərq"in suallarını cavablandırıb. O qeyd edib ki, Mühafizəkarlar hakimiyyətə gələndə onların Amerika və Avropa ilə münasibətləri adətən pisləşir:** "Belə bir vəziyyətdə isə ikili tendensiya yaranır. Birincisi, onların Qərblə münasibətləri pisləşdiyinə görə Qərb, xüsusən ABŞ, İsrail kimi ölkələr Azərbaycana daha çox təzyiq etməyə çalışırlar. Yəni İrana qarşı münasibətlərdə ondan istifadə etməyə çalışırlar. Bu isə öz növbəsində İran-Azərbaycan münasibətlərini pisləşdirir. Eyni vaxtda İrana daha çox sanksiya qoyulduğuna görə İran məcbur olur ki, xarici əlaqələrini və ticarətini qonşu ölkələr üzərində yürütsün. Burda həmişə ilk növbəni Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan tutub. Bu ölkələr üzərindən İran xaricə açılmağa çalışır. Hesab edirəm ki, gələcəkdə İranın Azərbaycanla münasibəti daha çox Qərblə İranın münasibətlərindən asılı olacaq. Yəni Qərbin, Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının, İsrailin İranla münasibətlərindən asılı olaraq Azərbaycanla İran münasibətləri də özünə bir yön qazanacaq deyə düşünürəm".

**Aynurə Pənahqızı**

## Koçaryan üçün bütün "qapılar bağlanıb"

O, daha mübarizə aparmayacaq, taleyi ilə barışacaq



**Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra qalib gələn tərəf Nikol Paşinyanın partiyası oldu.** Onun rəhbərlik etdiyi "Vətəndaş sazişi" partiyası 53.9 faiz səslə qələbə qazandı. Çoxlarının ümid bəslədiyi Robert Koçaryanın bloku isə həmin səslərin heç yarısını da yığa bilmədi (21 faiz). İndi əsas məsələ budur: Paşinyanın üzündəki təbəssüm nə vaxtadək davam edəcək? Əlbəttə, özünü normal siyasətçitək aparanadək. Yenə nöqtə-vergüllə danışmağa başlasa, sərsəm bəyanatlar səsləndirsə, axırda əl-ayağa düşəcək...

**Siyasi analitik Rusif Məmmədsoy İrəvanın bundan sonrakı xarici siyasəti barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Seçkilərin nəticəsi göstərdi ki, xalq savaş yox, Qərbə inteqrasiya istəyir. İnsanlar Rusiyadan daha az asılı olan siyasətçinin hakimiyyətə gəlməsini arzulayırdılar. Və bu oldu. Paşinyan ideal namizəd deyildi, lakin alternativi yox idi. O, KTMT, Avrasiya İqtisadi Birliyinə dair açıqlamalar verib, Moskvaya təşəkkür edib. Belə bəyanatlar səsləndirməyə məcburdur. Fəqət, Rusiyanın ağalığını qəbul etməyəcək və Qərbə inteqrasiya yolundan dönməyəcək".

**R.Məmmədsoy, həmçinin daxildəki vəziyyətlə bağlı da danışıb:** "Kreml özünə daha yaxın Koçaryanı hakimiyyətə gətirmək istəsə də, erməni cəmiyyəti buna icazə vermədi. Bundan sonra hansısa hərbi çevrilişi istisna edirəm. Koçaryan üçün bütün "qapılar bağlanıb". Onun "Xalqın layiq gördüyü mandatı qəbul etməyə məcburuq" açıqlaması göstərir ki, Koçaryan mübarizə aparmayacaq. Çünki mənasız olduğunu bilir. Həm də Paşinyanla aralarındakı səs fərqi böyükdür, tərəfdarları kifayət qədər deyil. Elə isə nəyə güvənərək addım atacaq? Eyni zamanda daha Moskva da buna icazə verməz. Necə deyərlər, qatar keçdi".

**Kənan**

# Bölgəni və İranı çətin günlər gözləyir



Rəisi sərt ritorikasından əl çəkməsə Çinin "qapısında qalacaq"

İranın yeni seçilmiş Prezidenti Seyid İbrahim Rəisi keçirdiyi ilk mətbuat konfransında ABŞ-la münasibətlərdən danışıb. O bildirib ki, ABŞ İrana qarşı sanksiyaları ləğv etməlidir. "Onlar nüvə anlaşmasını pozdular, Avropa İttifaqı da müqavilənin müddəalarına əməl etmədi" - deyə, prezident bildirib. Rəisi hakimiyyətə gələr-gəlməz "Burda mənəm, Bağdadda kor xəlifə" deməyə başladı. Görünür, bölgəni çətin günlər gözləyir.

Bu barədə "Şərq"ə danışan Natiq Mirinin fikrincə, Rəisinin hakimiyyətə gətirilməsi məqsədyönlüdür: "Bildiyiniz kimi, o, qatı mühafizəkardır və sərt siyasət yeridir. Əlbəttə, prezident "seçilməsi" təsadüfi deyil. Çünki ali liderin dəyişməsi məsələsi gündəmdədir. Bu, daxildə qarışıqlıq, xaos yarada bilər. Yalnız Rəisi kimi sərt siyasətçi həmin prosesin dinc keçməsini təmin etməyi bacarar".

**N.Mirinin sözlərinə görə, bundan sonra Tehranla Vaşinqton arasındakı "buzların əriməsini" gözləmək əbəsdir:** "Rəisinin bəyanatlarında xoş mesaj yoxdur. Əksinə, o, ABŞ-ı ittiham edir. Halbuki, ABŞ zəifləmiş İrana möhtac deyil. Əslində İranın ABŞ-a ehtiyacı var. Çünki sanksiyaların ləğvini və iqtisadi böhrandan çıxmağı arzulayır. Fikrimcə, yeni prezident radikal siyasətini davam etdirdiyi müddət ərzində tərəflər arasında münasibətlər normallaşmayacaq və sanksiyalar davam edəcək. Bunun günahkarı isə İranın yeni prezidentidir. Nəzərə almaq lazımdır ki, sanksiyaların ləğvi üçün Tehran qarşısında konkret tələblər qoyulub və bu məsələ Ruhani hökuməti ilə müzakirə olunmuşdu. Dediyim kimi, Rəisi sərt ritorikasından əl çəkməsə, "qınına çəkiləcək" və Çinin "qapısında qalacaq". Ümumiyyətlə, mən rəsmi Tehranın ən azı qarşıdakı illərdə normal regional siyasət yeridəcəyinə, qonşuluq münasibəti apacağına inanmıram".

**Kənan**

"Ermənistan hakimiyyəti konstruktiv mövqe nümayiş etdirərsə, formalaşmış yeni geosiyasi reallığın yaratdığı imkanlardan bəhrələnə və dinc həyatını qura bilər". Bu barədə Bakı Politoloqlar Klubunun sədri, siyasi elmlər namizədi Zaur Məmmədov deyib. Politoloq bildirib ki, Ermənistan cəmiyyəti gələcəklə bağlı seçimini edib:



"Azərbaycanın uzun illərdir erməni cəmiyyətinə ünvanlandığı çağırışlar seçkinin nəticələri ilə üst-üstə düşdü.

# Xalq müharibə yox, yaşayış istəyir

*Seçkilərin nəticəsi ilə əli qana bulaşmış revanşist qüvvələr kənara atıldı*

Bu o deməkdir ki, ermənilər revanşizmdən əl çəkməlidirlər. Qarabağa və digər qonşu ölkələrin torpaqlarına göz dikməyin onların faydalarına olmadığını anlamalıdırlar. Ermənistan gələcəyini qurmaq istəyirsə, normal qonşuluq əlaqələrini bərpa etməlidir. Xalqın yekun qərarı onu göstərdi ki, onlar keçmiş canilərin, avtoritar liderlərin, əli qana bulaşmış revanşist və terrorçu şəxslərin hakimiyyətə qayıtmasını istəmirlər. Seçkiləri erməni cəmiyyətinin Azərbaycanla növbəti mümkün qarşıdurmadan çəkindiyini bir daha sübut etdi. Çünki onlar bilirdilər ki, Robert Koçaryan hakimiyyətə gələrsə, yeni müharibə qaçılmaz olacaq".

**Siyasi şərhçinin sözlərinə görə, hazırda erməniləri düşündürən birinci dərəcəli məsələ sosial-iqtisadi vəziyyətlə bağlıdır:** "Seçkilər Koçaryana xalqın "şilləsi"dir. Əgər Azərbaycan 44 günlük Vətən müharibəsində Koçaryanı mənəvi cəhətdən darmadağın etdisə, erməni xalqı faktiki olaraq eks-prezidentə qapını göstərdi. Seçkilərdən sonra Azərbaycanla Ermənistan arasında intensiv şəkildə müzakirələrin keçirilməsi, həmçinin demarkasiya məsələlərinə aydınlıq gətirilməsi üçün ciddi addımlar gözlənilir. Əsas məsələ isə üçtərəfli Bəyanatın tam reallaşması istiqamətində işlərin aparılmasıdır. Türkiyə-Ermənistan sərhədlərinin açılması isə bu ölkənin üçtərəfli sazişin şərtlərini yerinə yetirməsindən və Azərbaycanla normal qonşuluq əlaqələri qurmasından asılı olacaq".

**İsmayıl**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi





# “Yaxın gələcəkdə Azərbaycanda televiziyaların fəlsəfəsi dəyişəcək”

### *Nəmənd Rüstəmov: “Müasir media sistemində deyilməyənləri deyənlər, göstərilməyənləri göstərənlər uğur qazanırlar”*

Kütləvi İnformasiya Vasitələrinin cəmiyyətə təsiri məlumdur. Media baş verən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmaqla bir çox hallarda həm də hadisələrin inkişafına təsir edir. Auditoriya bəzən bunun fərqində olmasa da, təqdim edilən informasiyalar bu və ya digər formada ictimai şüuru formalaşdırır, beyinlərə "toxumlar səpir". Əlbəttə, bu işdə televiziyaların da xüsusi rolu var. KİV-in bu qolunun qəzet və radiodan fərqli olaraq ifadə vasitələri daha çoxdur.

Bu isə onun öz funksiyalarını daha uğurlu yerinə yetirməsinə imkan verir. ”Danışan qutu”nun populyarlığı da məhz bununla bağlıdır: insanlar informasiyanı daha rahat qavramaq istəyirlər. Gələcəkdə hansısa yeni bir kəşfin televiziyanı ”kölgədə qoyub-qoymayacağı” dəqiq deyil. Hər halda televiziya hazırda ”internet” adlanan fenomenlə mübarizə aparmağı bacarır. Bəs, Azərbaycanda televiziyanın mövcud durumu necədir? Ayrı-ayrı kanallar, həqiqətən, öz işlərinin öhdəsindən layiqincə gələ bilirlərmi?

**Mütəxəssislərin bu suallara cavabları fərqlidir. Odur ki, informasiyanın cəmiyyət həyatındakı yeri və televiziyaların bu işdəki rolu ilə bağlı BDU-nun Jurnalistika fakültəsinin müəllimi, ATV+ televiziya operatorunun bədii rəhbəri Nəmənd Rüstəmovla söhbətləşdik.**

**- Yerli televiziyaların ictimai rəyə təsir imkanlarını necə qiymətləndirirsiniz?**

- Azərbaycan kiçik dövlətdir. Əhalinin böyük əksəriyyəti Bakı və Abşeron yarımadasında cəmləşsə də, region televiziyaları da nüfuzunu saxlaya bilir. Guya, çoxlarının baxmadığı verilişlər bölgələrdə maraqla, sevgi ilə qarşılanır. Zaur Baxşəliyevin, Xoşqədəm Hidayətqızının, Elgizin populyar olması bununla bağlıdır. Həmin maraq olduğu müddətcə televiziya aktuallığını qoruyacaq, kanallar ictimai rəyə təsir imkanlarını saxlayacaq. Amma hələlik. İnternetin gəlişi ilə yaxın gələcəkdə bütün dünyada olduğu kimi, Azərbaycanda da televiziyaların fəlsəfəsi dəyişəcək.

İnsan həmişə acdır. Hər şeyə, o cümlədən də informasiyaya daha çox tələbat hiss edir. Və unutmayaq ki, XXI əsr yalqızlıq əsridir. İnsanlar eqoistləşirlər. Nə qədər gizlətməyə çalışsaq da, bu, belədir. Nəticədə real adamlar həm də peşəkar aktyora çevrilirlər. İnsan mahiyyət etibari ilə nə qədər realistdirsə, bir o qədər romantikdir. Hər birimiz ucsuz-bucaqsız ümid kisəsiyik. İnsandan ümidi çıxarsan, nəsə qalmaz. Təsəvvür edin, hər kəs nə vaxtsa öləcəyini bilir, amma ölməyəcəkmiş kimi yaşayır. Özü də sevə-sevə. Deməli, insanlar həmişə daha çox informasiya istəyirlər. Bu, təbiidir. Gizlinləri bilmək həvəsi isə hər kəsə tanışdır. Deməli, müasir media sistemində deyilməyənləri deyənlər, göstərilməyənləri göstərənlər uğur qazanırlar. İnsanın xisləti belə qaldıqca televiziyaya maraq itməyəcək. Əksinə, o, öz sosial kimliyini doğruldacaq. Hətta nə vaxtsa yayım formatı dəyişsə belə.

**- Deməli, jurnalistika bütün dövrlərin peşəsidir və bizə gələcəkdə də tələbat olacaq?**

- Elə sahələr var ki, zaman-zaman köhnəlirlər. Bəziləri jurnalistikanın gələcəyi ilə bağlı bədbin proqnozlar səsləndirirlər. Amma mən buna inanmıram. Çünki əslində hər kəsin daxilində bir jurnalist var. Bayaq dediyim kimi, biz nə qədər realistiksə, bir o qədər də romantikik. Hər birimiz hekayə dinləməyi və yazmağı sevirik. Deməli, yeniliklər hər birimiz üçün maraqlıdır. Bu mənada jurnalistikanın gələcəyi ilə bağlı nikbinəm.

> "Sosial şəbəkələri tənzimləmək çox çətin, bəlkə də, mümkünsüzdür. "Dirijor"un kim olduğu bilinməsə də, dünya dəyişir. Biz baş verənlərdən ən yaxşı halda minimum ziyanla çıxa bilərik"

**- Televiziya kanallarındakı ixtisaslaşmalar lazımi effekti verir?**

- Azərbaycanda iki idman, iki xəbər, bir musiqi, bir mədəniyyət və bir uşaq kanalı var. Həmçinin bu yaxınlarda MTRŞ maarifləndirici bir kanalın açılması barədə müsabiqə elan etdi. Məsələ ondan ibarətdir ki, nə qədər insan varsa, o qədər də maraq var. Məqsəd isə həmin maraqları sistemləşdirmək, qruplaşdırmaq və lazım gələndə idarə etməkdir.

**- Niyə belə düşünürsünüz?**

- Dünya çox balacadır. Planetin istənilən yerində baş verən hadisə bizim üçün maraqlı olmalıdır. Bunu son vaxtlar daha yaxşı gördük. Məsələn, Hindistan ştammının Rusiyada sürətlə yayılması bunu sübut edir. COVİD-19 pandemiyasının tüğyan etməsi fonunda ən demokratik hüquqlarımız məhdudlaşdırıldı. İnsanları inandırdılar ki, küçəyə çıxmamaq, əllə görüşməmək və s. bizim xeyrimizədir. Və bu işdə KİV-dən məharətlə istifadə olundu. Ümumiyyətlə, dünyanın nizamı dəyişir.

**- Televiziyaların reklam bazarında vəziyyət necədir?**

- Televiziyalar böyük maliyyə kapitalının dövr etdiyi sistemdir. Ən böyük reklam pulları məhz televiziyadadır. ABŞ-da otuz saniyəlik reklamın qiyməti 2 milyon dollardır. Bizdə isə bir dəqiqəlik reklamın qiyməti təxminən bir milyondur. Bu, bir verilişin gün ərzində 4-5 milyonluq reklam gətirməsi deməkdir. Ancaq MTRŞ-nin hesabatlarında göstərilir ki, son illərdə reklam büdcəsi 35 milyon manatı, yəni 20 milyon dolları keçmir. Azərbaycan teleməkanında 10-dan artıq kanalın olduğunu nəzərə alsaq, onların hər birinin illik reklam gəlirləri o qədər də çox deyil. Halbuki, bir ildə sosial şəbəkədən 200 milyon avro qazanan dünya ulduzları var. Onların hər birinin illik reklam gəliri Azərbaycan teleməkanının reklam gəlirindən dəfələrlə çoxdur.

**- Niyə belədir?**

- Gəlin, əvvəl bir misal deyim: Bir müddət əvvəl məşhur dünya ulduzu Kristiano Ronaldu mətbuat konfransında UEFA-nın rəsmi sponsoru olan ”Koca-kola”nı qırağa çəkdi və insanları su içməyə çağırdı. BBC mətbuat konfransından canlı reportaj verirdi. Həmin kadrlar sosial şəbəkələrdə ildırım sürəti ilə yayıldı. Nəticədə həmin gün şirkətin səhmləri 4 milyard dollar azaldı. Bu, medianın, o cümlədən sosial şəbəkələrin necə ciddi təsir gücünə malik olmasından xəbər verir. İkinci bir tərəfdən, insanlar ulduzlara bənzəmək istəyirlər. İlk baxışdan belə görünür ki, baş verən sosial-siyasi deformasiyalar dünyanı idarəolunmaz hala gətirir. Əslində isə xaos idarə olunur. Şübhəsiz, proseslərin arxasında ”gizli əllər” var və biz baş verənlərin nəticəsini xeyli sonra görəcəyik. Dünyada baş verənlər hansısa ”böyük oyun”un ”kiçik məşqləridir”. Və KİV, xüsusilə internetlə televiziya həmin proseslərin iştirakçısıdır. Sosial şəbəkələrdən istifadə meyillərinin güclənməsi, o cümlədən pandemiya ilə bağlı olaraq distant tədris prosesinin kütləviləşməsi bunu təsdiqləyir.

**- Bəs, ölkədə reklam bazarını inkişaf etdirmək üçün nə etməliyik?**

- Əlbəttə, iqtisadiyyat inkişaf etməlidir. Tələb və təklif arasında düz mütənasib əlaqəni nəzərə alsaq, əvvəl istehsal yüksək səviyyədə olmalıdır ki, reklam bazarından ağızdolusu danışa bilək. Amma daha vacib məsələ var.

**- Nədir?**

- Biz ənənəvi istehsaldan əldə etdiyimiz gəlir hesabına məişət avadanlıqları alırıq. Cəmi 300 qramlıq telefon min manata təklif olunur. Bir ton pomidorun qiyməti isə 200-300 manatdır. Deməli, üç yüz qramlıq bir telefon üç ton pomidorla eyni qiymətədir. Niyə? Çünki telefona əlavə dəyər-intellekt qatılır. Bax, məhz buna görə indi informasiya ilə işləmək daha asandır. Smartfonu olan, informasiyanı almağı, yaymağı, emalını bacaran istənilən şəxs ən yaxşı reportyor ola bilər. Bu gün insanlar, az qala, hər anlarını paylaşırlar. Beləliklə, saysız-hesabsız informasiya axını meydana gəlir və ”informasiya çirkliliyi” yaranır.

**- Bəs bununla necə mübarizə aparmalıyıq?**

- Dediyim kimi, gün ərzində ən müxtəlif mənbələrdən minlərlə informasiya qəbul edirik. Bəzisinin heç fərqində olmuruq. Məsələn, adi ”Nə var, nə yox” sualına aldığımız cavab özü informasiyadır. Şübhəsiz ki, informasiya bolluğu insanı səhv istiqamətə yönləndirə bilir. Deməli, ayıq-sayıq olmaq lazımdır. Bunun üçün xüsusi təlimlər keçirilir. İkinci bir tərəfdən, televiziya ilə bağlı qanun müəyyən mənada bu KİV-in ”əl-qolunu bağlayır”. Amma sosial şəbəkələri tənzimləmək çox çətin, bəlkə də, mümkünsüzdür. ”Dirijor”un kim olduğu bilinməsə də, dünya dəyişir. Biz baş verənlərdən ən yaxşı halda minimum ziyanla çıxa bilərik. Yeni reallıqlarla uyğunlaşmaq lazımdır.

**- Necə düşünürsünüz, texnoloji imkanların bu qədər artması fonunda vətəndaş jurnalistikası ilə peşəkar jurnalistikanın mübarizəsi gələcək üçün nələr vəd edir?**

- Bu barədə çox müzakirə aparırlar. Vətəndaş jurnalistikasından fərqli olaraq, ənənəvi jurnalistikanın meyarları, prinsipləri, etik kodeksləri var. İxtisasca jurnalist olanlar digərlərindən aydın fərqlənirlər. Bu, özünü ən azından prinsiplərə, etik kodekslərə sadiqliyində göstərir. İxtisasca jurnalist olanlar bəzən həqiqəti deyə bilməsələr də, heç olmasa, insanlığı qorumağa çalışırlar. Mediaya kənardan gələnlər üçünsə müqəddəs nəsə yoxdur. Onların hədəfi bir çox hallarda ləkələmək olar. Əlbəttə, ixtisasca jurnalist olanların arasında da bunu edənlər var. Amma fikrimcə, bütün hallarda ənənəvi jurnalistikanı qorumağa çalışmalıyıq.

**- Niyə belə düşünürsünüz?**

- İnformasiya çox həssas və təhlükəli məfhumdur. Hələ illər əvvəl çəkilən ”Old boy” filmində idarəolunan informasiyanın insanı hansı hala sala biləcəyi göstərilmişdi. Bayaq dediyim ”Coca-cola” misalında olduğu kimi, informasiyanın sosial şəbəkələrdə sürətlə tirajlanaraq hansı xaosu yarada bilməsi artıq hər kəsə məlumdur. Dünya əhalisinin 5-6 milyardının bir gündə eyni yanlış informasiyanı təkrarlaması nəticəsində nələr ola biləcəyini özünüz təsəvvür edin... Bax, bunu anlayanlar ənənəvi jurnalistikanı qorumağa çalışmalıdırlar. Hərçənd, prosesin asan başa gələcəyinə inanmıram. Əksinə, çox çətin olacaq.

**- Bildirdiniz ki, jurnalistlər bəzən həqiqəti söyləyə bilmirlər. Nə üçün?**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

- Müxtəlif səbəbləri var. Əsas məqamlardan biri də etik normalarla bağlıdır. Həkimlər adətən xəstələrə onun öləcəyini deyə bilmirlər. Bunun əvəzinə, ürək-dirək verir, hər şeyin yaxşı olduğunu bildirirlər. Jurnalistlər də bir çox hallarda oxşar situasiya ilə qarşılaşırlar.

**- İnformasiya gündəlik həyatımızda hansı rolu oynayır?**

- Sadəcə onu deyim ki, informasiyasız qalmağı bacarırıq. Dünyada nələri dəyişə biləcəyimizi bilməsək də, baş verənlərdən xəbərdar olmaq istəyirik. Bu mənada mən gəncliyə ümidlə baxıram. Düzdür, nöqsanlar, əvvəlki dövrün mental xüsusiyyətləri ilə üst-üstə düşməyən məqamlar var. Amma təcrid olunsaq, inkişafdan, elmi-texniki tərəqqinin imkanlarından geri qalacağıq. Odur ki, müqavimət göstərə-göstərə adaptasiya olunmalıyıq.

**- Region televiziyaları ilə bağlı nə deyə bilərsiniz?**

- Əvvəla, onu deyim ki, sovet dövründə Azərbaycan teleməkanı mahiyyət etibarı ilə region televiziyası rolunu oynayıb. İndi də Azərbaycan kanalları dünya teleməkanının çox kiçik bir hissəsidir. Bu mənada region televiziyalarının üstünə çox düşmək olmaz. ”Lider” kimi ümumrespublika səviyyəli kanal bağlandısa, deməli, güclü olmaq lazımdır. Kanallar, o cümlədən region kanalları təbii seçim əsasında formalaşmalı, auditoriyanın tələbatını ödəməlidir. Məsələ ondan ibarətdir ki, böyük ümidlərlə yaranan televiziyalar sonradan bu və ya digər səbəbdən bağlanırlar. Deməli, ”cəngəllik qaydasına” uyğun davranmaq, çox çalışmaq, mübarizə aparmaq lazımdır. Region televiziyaları informasiya zəncirindəki ilkin halqa rolunu oynayır. Onların mahiyyəti region əhalisinin maraqlarına cavab verməkdir. Ən ciddi problem maliyyə ilə bağlıdır. Ümumiyyətlə, uğurlu televiziyanın ilkin şərti müasir standartlara cavab verən texniki avadanlıqlardır. Bu isə böyük xərc tələb edir. Ölkəmizdə televiziyalar rentabelli olmadığına görə onlara lazımi qədər maliyyə ayırmaq kimsəyə maraqlı deyil.

**Kənan Novruzov**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Həmişə Azərbaycanın yanında oldular

Azərbaycan Müdafiə naziri Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişaf etməsindən məmnunluğunu ifadə edən general-polkovnik Z.Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını ifadə edib.



## Pakistanla əlaqələr bundan sonra daha sürətli inkişaf edəcək

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi zamanı dağ-təlim heyətinin hazırlanması, həmçinin birgə təlimlərin keçirilməsi barədə razılıq əldə olunub.

**İki ölkə arasındakı hərbi əməkdaşlıq barədə "Şərq"ə danışan ehtiyatda olan polkovnik Şair Ramaldanov artıq 20 ildən çoxdur ki, Pakistanla əlaqələrimizin inkişaf etdiyini bildirib:** "Pakistan ilk islam ölkələrindəndir ki, ərazi bütövlüyümüzü dəstəkləyib və tanıyıb. Bu dövlət Tovuzda baş verən iyul hadisələri zamanı da Azərbaycanın yanında olduğunu bəyan edib.

Pakistanla bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığımız inkişaf etdirilir. Müharibə zamanı Türkiyə ilə birgə məhz Pakistan bayrağının da Azərbaycan bayrağının yanında dalğalandığını görürük. Bu, xalqımızın Pakistan dövlətinə olan minnətdarlıq hissidir".

**Ş.Ramaldanov vurğulayıb ki, müharibədən sonra da Pakistanla olan hərbi münasibətlərimiz sürətli şəkildə inkişaf edir:** "Azərbaycan, Pakistan və Türkiyə hərbi hava qüvvələrinin birgə təlimləri keçirildi. Növbəti zamanlarda quru qoşunların da təlimləri planlaşdırılır. Fikrimcə, Pakistanla Azərbaycanın hərbi münasibətləri planlı şəkildə aparılacaq.

Plan əsasında iki ölkənin hərbi iş birliyi öz inkişafına nail olacaq. Pakistan güclü bir dövlətdir və çox böyük silahlı qüvvələri, ordusu və təcrübəsi var.

Ölkəmiz də müharibədən çıxmış təcrübəli hərbi heyətə malikdir.

Ona görə Pakistan üçün də Azərbaycan önəmlidir. Pakistanla əvvəllər də hərbi-texniki əməkdaşlıq edirdik. Azərbaycanın hərbi hava qüvvələrində olan təlim təyyarələrindən 9-u məhz Pakistanda istehsal olunub. İki ölkənin hərbi sənaye kompleksi arasında müəyyən sazişlər və birgə proyektlər var. Həmin proyektlər də həyata keçiriləcək. Ölkələr arasında hərbi sahədə işbirliyi və digər münasibətlər daimi olacaq. Bu, iki dövlət üçün faydalıdır. Mütəmadi görüşlərin keçirilməsi onu göstərir ki, Azərbaycanla Pakistanın hərbi əlaqələri dinamik şəkildə inkişaf edir".

**Yeganə Bayramova**



Hacı Zaməddin Ziyadoğlu,
Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü

# Tariximizi tarixləşdirən dərgi

Bu ilin yaz günlərindən birində mobil telefonuma bir zəng gəldi. Araşdırmaçı-yazar, publisist eloğlum Sərxan Carçıydı. Salamlaşıb, hal-əhval tutduq və mənə bir müjdəsini verdi. Vədələşib, görüşdük.

"Azərbaycan" nəşriyyatında təşkil olunmuş bir tədbirdə, Sərxan müjdəsini reallaşdırdı, daha doğrusu, işıq üzü görən "CARÇI Express" jurnalının nübar və 2-ci sayını mənə təqdim etdi. Mən də elə ürəyimə dammış kimi, Sərxan qardaşıma yenicə, 6-cı dəfə, 55 şairin "Həncərisən"ə nəzirə yazmış kitabımı Sərxana hədiyyə etdim. Sərxan ərk ilə, bu dərgiyə fikrimi bildirməyi və Hacı xeyir-duamı istədi. Dərginin hər iki sayını elə gecəynən oxuyub və isti-isti bu yazımı ərsəyə gətirdim. "Şərq"in sevimli oxucuları üçün onu da bəri başdan deyim ki, Sərxanın özü Qazaxın Çaylı kəndindəndir, gənc yaşlarından şeirə-sənətə aludə böyüyüb. Gözəl bağbağatı və təbiəti olan cənnətməkan Qazaxımızda insanlar həmişə poeziya ruhlu olublar. Beşiyimizin başında analarımız bayatılar deyib, bizlər də bu ruhda böyümüşük. Sizi əsas məqsədimdən yayındırmamaq üçün, xüsusi qeyd edim ki, "CARÇI Express" jurnalı həm dəyərinə, həmçinin tərtibatına görə oxucunun zövqünü oxşayır. Redaksiya heyətində mahalımızda və ölkəmizdə tanınan alimlər, qələm əhli, tarixçilər, şairlər (yalnız bir cəncəl şairdən başqa) var.

Jurnalın ilk sayı Qazax bölgəsinin işğal altında qalan kəndlərinə, keçmiş SSRİ və Azərbaycan KPMK-nin rəhbər işçilərinin ikiüzlüyü, Nazirlər Kabinetinin rəhbərliyinin yaltaqlığı, bu kəndlərin ermənilərə verilməsinin ilkin məlumatlarıdır. Əslində, Qarabağ faciəmiz Qazaxdan başlayıbdır. Erməni vandalları Bağanıs Ayrımda, Soflu, Barxudarlı, Aşağı-Yuxarı Əskiparalar, Xeyrimli və Qızıl Hacılını 1992-ci ildə işğal ediblər. Tarixi sənədlər bunu təsdiq edir. Jurnalın ikinci sayı isə başdan-ayağa qardaş Türkiyə Cümhuriyyətindən, Qafqaz İslam Ordusundan, keçən əsrin əvvəlində xalqımızın başına gətirilmiş, ermənilərin törətdiyi Bakı qırğınından, respublikamızın




qərb, cənub, şimal bölgələrində törədilmiş faciələrdən bəhs edir. "CARÇI Express" dərgisini oxuyub, isti-isti rəy yazaraq, qeyd edim ki, hər iki sayı bir elmi-tədqiqat institutunun görə biləcəyi işə bərabərdir. Yekun olaraq, istərdim ki, bu dərgidəki dəqiq məlumatlar məktəblərimizdə də təbliğ olunsun. Və bu dərginin normal nəşr olunması üçün hamımız, vətənsevərlər maddi-mənəvi dəstəyimizi əsirgəməyək. Necə ki, ilk saylarına "Qazax" Xeyriyyə İctimai Birliyinin sədri İlham Pirməmmədov, Türk Dünyası Araşdırmaları Vakfının sədiri Közhan Yazqan və Bakı Atatürk Liseyinin müdiri Eyləm Gültəkin xanım dəstək olub.

# Türkiyə Azərbaycanla ticarət dövriyyəsini 15 milyard dollara çatdıracaq

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki qardaş ölkə arasında yeni müqavilələrin imzalanacağını bəyan edib. Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan və Türkiyə arasındakı strateji əməkdaşlığın yeni mərhələyə qədəm qoyacağı gözlənilir. Maraqlıdır, söhbət hansı yeni müqavilələrdən gedə bilər?



## İqtisadiyyatda böyük inkişaf gözlənilir

**Mövzu ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Şərq" ə açıqlama verib.** Onun sözlərinə görə, Şuşa Bəyannaməsində əməkdaşlığın yeni istiqamətləri təsbit olunub. Deputat bildirib ki, vacib istiqamətlərdən biri bəyannamədə nəzərdə tutulduğu kimi, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılmasıdır: "Bu il martın 1-dən qüvvəyə minən Azərbaycanla Türkiyə arasında Preferensial Ticarət Sazişi artıq 15 mal qrupu üzrə qarşılıqlı güzəştlərin tətbiq olunmasını əhatə edir. Bu sahədəki anlaşmaların əsas məqsədi iki ölkə arasındakı ticarət dövriyyəsini hədəflənən həcmə çatdırmaqdan ibarətdir. Qardaş ölkələr növbəti 3 il ərzində ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması ilə bağlı hədəf müəyyənləşdiriblər. Qeyd edək ki, 4.5 milyard dollarlıq ticarət dövriyyəsi ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Bəyannamənin imzalanmasından sonra bu sahədə yeni addımların atılacağı gözlənilir. İki qardaş ölkə arasında ticarət dövriyyəsinin artacağı hədəflənir".

*V.Bayramov qeyd edib ki, beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit nəqliyyat potensialı iqtisadi inkişafa xidmət edəcək addımlardır:* "Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviq edilməsinin bəyannamədə nəzərdə tutulduğunu nəzərə alsaq, bu sahədə də əməkdaşlıq güclənəcək. Türkiyə və Azərbaycan beynəlxalq yükdaşımalar üzrə siyasətlərini əlaqələndirmək üzrə xeyli müddətdir ki, birgə fəaliyyət həyata keçirirlər. Dəhliz Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacağından bu hər iki ölkə üzərindən daşınan yüklərin həcminin artmasına səbəb olacaq. Bütövlükdə, iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi və Şuşa Bəyannaməsinə uyğun olaraq yeni anlaşmaların olacağı gözlənilir".

**Aynurə Pənahqızı**

# Onlayn narkomaniya şəbəkəsi gəncləri ölümə sürükləyir



*"Tik-tok", "instagram" və "ok" sosial tətbiqləri uşaqlara birmənalı qadağa olunmalıdır*

Narkomaniya gənclərin düçar ola biləcəyi ən böyük fəlakətdir. Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya insan həyatında bərpası mümkün olmayan fəsadlar yaradan, irqindən, yaşından, dinindən asılı olmayaraq, bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biridir.

Təəssüf doğuran haldır ki, bu bəlaya ilk olaraq gənclər və yeniyetmələr yoluxur. Sirr deyil ki, narkotik maddə alverçiləri bu yaş kateqoriyasına aid olan insanları asanlıqla öz girovlarına çevirməyə nail olurlar. Bilirik ki, narkotik maddələr tələdir! Bu tələyə bir dəfə düşən insanın oradan çıxması çətin olur. Buna görə də narkotiklərdən qorunmağın ən yaxşı yolu ondan heç vaxt istifadə etməməkdir. Lakin çox təəssüflər olsun ki, dövlətimiz tərəfindən nə qədər mübarizə tədbirləri aparılsa da, bunun qarşısını tamamilə almaq mümkün deyil. Narkotik maddə alverçiləri daha çox gəncləri məhv etməkdə maraqlıdır. Xüsusən 20-ci yüzilliyin sonu 21-ci əsrin əvvəllərindən başlayaraq yaşanan elmi-texniki tərəqqi narkotik vasitələrin də zaman məkan anlayışı tanımadan geniş relyefdə yayılmasına yol açılıb. Xüsusən narkotik vasitələrin satışı ilə məşğul olan şəxslər qısa zaman ərzində psixoloji problemləri olan, düzgün tərbiyə üsulları ilə böyüməyən və sonda sosial şəbəkələrə üz tutan gənc nəslin "əməyindən" öz çirkin əməlləri üçün istifadə edirlər. Belə olan halda qeyd edilən tip insanlar narkotiklərin satışı ilə məşğul olan şəxslərin sosial şəbəkələrdə onlara narkokuryerlik etmək təklifini asanlıqla qəbul edirlər. Baş Mütəşəkkil Cinayətkarlığa Mübarizə İdarəsinin əməkdaşları əməliyyat zamanı onlayn yolla narkotik vasitə və psixotrop maddələrin Azərbaycan ərazisində satışını təşkil edən mütəşəkkil dəstənin 27 nəfər üzvünü saxlayıb, 5 nəfər isə axtarışdadır. Araşdırma zamanı müəyyən edilib ki, adları istintaqa məlum olan və xaricdə yaşayan dəstənin rəhbərləri narkotiklərin onlayn satışını həyata keçirən şəbəkə yaradıblar. Dəstə üzvləri müxtəlif üsullardan istifadə edərək verilən tapşırıqlar əsasında narkotik vasitələri Bakı şəhəri və respublikanın müxtəlif yerlərində yerləşdiriblər. Sonradan şəbəkəyə daxil olan narkokuryerlər həmin yerlərin şəklini çəkib "Whatsapp" ani mesajlaşma sistemi ilə dəstə başçılarına göndəriblər.

**Məsələyə münasibət bildirən internet-media eksperti, 7NEWS.az saytının rəhbəri Səbuhi Abbasov "Şərq"ə açıqlamasında uşaqların və gənclərin internet təhlükəsizliyinin təminatı ilə bağlı bir çox addımların atıldığını bildirib. S.Abbasov bütün tədbirlərə baxmayaraq ciddi problemlərin olduğunu deyib:** "Bu bəla bütün dünyada aktualdır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr son 15 ildə ciddi uğurlar əldə etsələr də, uşaqların və gənclərin internet təhlükəsizliyini 100 faiz təmin edən mexanizm yoxdur. Ancaq biz uğurlu modelləri seçib, yeni reallıqlara uyğunlaşdırmaqla ciddi uğurlar əldə edə bilərik. Məsələn, Yaponiyada "Microsoft" şirkəti ilə birlikdə kütləvi, həm də ödənişsiz təlim proqramları illərdir həyata keçirilir. Eyni zamanda, "i-police" adlı məsləhət saytı yaradılıb. Bundan başqa Fransa, Almaniyanın da "interbet filterizasiya" proqramı illərdir ki, öz effektini verməkdədir".

**Ekspert hesab edir ki, şəxsiyyət vəsiqəsi ilə giriş texniki olaraq mümkün görünsə də, ancaq effektivliyi sıfır olacaq:** "Burada ən böyük yer Təhsil və Rabitə Nazirliyi üzərinə düşür. Rabitə Nazirliyi geniş filter həllərini tətbiq etməli, Təhsil Nazirliyi isə kütləvi şəkildə valideynlərlə birlikdə təbliğat maşınını işə salmalıdır. Artıq demək olar ki, bütün smartfonlarda "uşaq modu" funksiyası var. İlk növbədə valideyn uşağa smartfon alanda, mütləq şəkildə bu modu aktiv etməlidir. O zaman internet üzərindən gələcək bütün reklam, 18+ tətbiqlər, video və foto görüntülər smartfon tərəfindən bloklanacaqdır. Digər tərəfdən isə sosial şəbəkələr, xüsusən də, "tik-tok", "instagram" və "ok" sosial tətbiqləri uşaqlara birmənalı qadağa olunmalıdır. Belə tətbiqlər uşaqların və gənclərin sağlam formalaşmasının qarşısını alır. Bu mənada diqqətli olmalı, cərimə, polis nəzarəti və digər hüquqi qadağalar mexanizmi tətbiq olunmalıdır. İndiki halda bu sahədə ciddi boşluq və xaotik durum yaşanır".

**Aynurə Pənahqızı**

## 8 xəstəxananı yoxlamaqla iş bitmir

### 30 ildir ölkəmizdə səhiyyə islahatları aparılmayıb



**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) tabeliyində fəaliyyət göstərən bır sıra tibb müəssisələrində yoxlamalar başa çatıb.**

Aprel-iyun aylarında paytaxt Bakı şəhəri istisna olmaqla ölkə ərazisi üzrə ümumilikdə 46 tibb müəssisəsini əhatə edən yoxlama-nəzarət tədbirləri zamanı qidalanma rejiminin təşkili, ərzağın keyfiyyəti, qida bloklarının sanitar-texniki və sanitar-gigiyenik vəziyyəti, qida təhlükəsizliyi tələblərinə əməl olunması yoxlanılıb.

Yoxlama tədbirləri nəticəsində fəaliyyətində ciddi nöqsanlar aşkarlanmış səkkiz tibb müəssisəsi ilə bağlı zəruri məlumatlar toplanaraq hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim olunub. Həmçinin bir sıra tibb müəssisələrində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmaması ilə bağlı vəzifəli şəxslər inzibati məsuliyyətə cəlb edilib.

**Sözügedən yoxlamalarla bağlı "Şərq"ə danışan Azərbaycan Demokrat Partiyası sədrinin müavini, həkim Həsrət Rüstəmov bildirib ki, ölkəmizdəki səhiyyə müəssisələrindəki nöqsanlar üzücü olsa da, gözləniləndir:** "Əslində səhiyyə sistemindəki çatışmazlıqlar hökumətin günahıdır. Çünki 30 il ərzində ölkəmizdə səhiyyə islahatları aparılmayıb. Dəqiq bilmirəm, keçmiş SSRİ respublikalarından bizim kimi səhiyyə islahatlarını gec aparmağa başlayan ölkələr varmı? Amma qonşu Gürcüstanda 15 il öncə bu islahatlar Mixail Saakaşvilinin dövründə aparılıb və səmərəli olmuşdu.

Biz də Gürcüstan modelindən istifadə edə bilərdik. Lakin Azərbaycan səhiyyə islahatlarına çox gec, 2 il öncə başladı. Sonra isə pandemiya oldu və bu dönəmdə demək olar ki, islahatların böyük hissəsi həyata keçirilməmiş qaldı. Ona görə də səhiyyə sistemimizdə neqativliklər aşkar olunur.

Ölkəmiz keçmiş sovetdən qalma səhiyyə sistemi ilə çalışır, səhiyyəyə ayrılan pulların böyük hissəsi korrupsiyaya məruz qalır. Bu gün də əmin deyilik ki, ayrılan pullar həqiqətən təyinatı üzrə xərclənir, ya yox? Təbii ki, nöqsanlar bütün xəstəxanalarda var. Digər xəstəxanaları da araşdırsalar, eyni problem az və ya çox dərəcədə mövcuddur".

**Aparılan araşdırmaların müsbət nəticələrə səbəb olub-olmayacağına gəlincə, H.Rüstəmov vurğulayıb ki, yoxlamaların keçirilməsi yaxşı haldır və müsbət təsirlərini göstərəcək:** "TƏBİB nə qədər prinsipial şəkildə belə araşdırmalara davam edəcəksə, nöqsan sahibləri obyektiv şəkildə cəzalandırılacaqsa, effektiv olacaq. Yalnız 8 xəstəxananı araşdırmaqla iş bitmir. Bu yoxlamalar bütün səhiyyə ocaqlarında sistemli olaraq həyata keçirilməlidir".

**Yeganə Bayramova**

# Məhkəmələr qərarları icra etmir

Gizli sexlərdə saxta spirtli içkilər hazırlayaraq satış şəbəkəsi quran mütəşəkkil cinayətkar dəstəyə qarşı əməliyyat tədbiri keçirilib. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Bildirilib ki, nazirliyin Baş Mütəşəkkil Cinayətkarlığa Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) mütəxəssislərinin iştirakı ilə gizli sexlərdə saxta spirtli içkilər hazırlayaraq satış şəbəkəsi quran daha bir mütəşəkkil cinayətkar dəstəyə qarşı əməliyyat tədbiri keçirilib.

Əməliyyat nəticəsində müəyyən olunub ki, Şəmkir rayon sakinləri Vaqif Əhmədov və oğlu Nicat Əhmədov Gəncə şəhər sakini Orxan Quliyevdən aldıqları mənşəyi məlum olmayan spirt və qapaqlardan istifadə etməklə saxta içkilər hazırlayıblar. Daha sonra bu şəxslər həmin spirtli içkilərin Tərtər rayon sakini Bəxtiyar Əzimzadənin vasitəçiliyi ilə respublikanın rayonlarında fəaliyyət göstərən topdansatış mərkəzləri, marketlər, restoranlar və digər obyektlərdə satışını təşkil ediblər.





Saxta içki, leş ət satanların meydanı genişlənir

Zaman-zaman xəstə və istifadəyə yararsız heyvan ətləri, vaxtı keçmiş müxtəlif qida məhsullarının satışına şahid oluruq. Son dövlər isə saxta spirtli içki satışını həyata keçirən dəstələr fəallaşıblar. Normalda sağlamlıq üçün zərərli olan içkilərin saxta versiyasının istifadə beş qat təhlükəlidir.

**Baş verənlər barədə "Şərq"ə danışan Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov bildirib ki, AİİB-də istehlakçıların gətirdiyi çoxlu sayda saxta spirtli içki var:** "Belə şikayətləri illər boyu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə yönləndirmişik. Təəssüf ki, həmin qurum illər boyu hansısa iş görməyib. Hazırda isə bu işə AQTA baxır. Lakin hər iki qurum istehlakçı hüquqlarının qorunması üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin gördüyü qədər iş görə bilmir. Təəssüf ki, DİN-in istehlakçı hüquqlarının qorunması sahəsində apardığı əhəmiyyətli işi məhkəmələr icra etmir. Müəyyən müddətdən sonra qanunsuzluğa yol verən həmin şəxsləri azadlığa buraxırlar. Ona görə də AİİB olaraq məhkəmələrin bu davranışını sərt tənqid edirik. DİN-in apardığı əhəmiyyətli işlərin mahiyyətini heçə endirən məhkəmələrlə ömrümün axırına qədər mübarizə aparmaq fikrindəyəm. Həmin adamlar azad edildikləri üçün yenə eyni işlərlə məşğul olurlar".

**E.Hüseynov təklif edib ki, bu sahə DİN-ə həvalə edilsin və onlar sona qədər qərar qəbul etmək səlahiyyətində olsunlar ki, məhkəmələr qanunsuzluq edən həmin şəxsləri azad edə bilməsin:** "20 ilə yaxındır ki, "leş mafiyası" ilə "vuruşuram". Dəfələrlə ifşa edilsələr də, yenə eyni işlə məşğuldurlar. Belə halların qarşısının alınmasında bələdiyyələri və sahə müvəkkillərini günahlandırıram. Çünki onların gözləri qabağında bu cür qanunsuzluqlar yaşanır. Təəssüf ki, həmin qurumlar vəziyyətin yaxşılaşmasına kömək etmirlər".

**Yeganə Bayramova**

# Zənglər başladı...

*Afət Fərmanqızı artıq 9 toyun behini alıb*



Bir iyul tarixindən etibarən müəyyən şərtlərlə toyların keçirilməsinə icazə veriləcək. Həmçinin dəvətli sayına da bir sıra məhdudiyyətlər qoyulub. Artıq 400-500 nəfərlik toyları, 150 qonağın iştirak etdiyi məclislər əvəz edəcək.

Bir də toylara icazə verilməsi ilə yada bu sahədən çörək pulu qazanan insanlar düşür.

Şübhəsiz, onlardan ən tanınmışları müğənnilərdir. Sənətçilər bir il yarımdan sonra öz ölkəmizdə toylarda ifa edəcəklər.

**Mövzu haqda "Şərq"lə həmsöhbət olan müğənni Afət Fərmanqızı toy sahiblərindən zənglərin gəldiyini söyləyib:**

"Pandemiyadan əvvəl 30-dan çox toyun behini almışam. İndi fikirləşirəm ki, necə olacaq. Çünki vaxt azdır. Qarşıdan "Məhərrəm" ayı gəlir. Hamısı da şənbə və bazar günündə toyun olmasını istəyir. Bu gün 9 toy yazmışam. Razılaşırıq, kartın nömrəsini göndərirəm behi köçürdürlər. Həm sevinirik, bir tərəfdən də insanlara səslənirəm, vaksinasiyaya "hə" deyək. Ona görə ki, toyda problem yaranmasın. Nəticədə koronavirusdan azad olaq. Məsələn, hazırda Rusiyada vəziyyət pisdir. Biz qaydalara qarşı aqressiv idik. Deyirdik, toylara niyə icazə verilmir. Bəlkə də ən az itki bizdə oldu. O da dövlət başçımızın uğurlu siyasətinin nəticəsində durumumuz daha yaxşıdır. Başqa ölkələrdə belə deyil. Xəstəlik tüğyan edir. Hindistan ştammı yayılır. Rusiyadan camaat qaçıb gəlir. Onların içərisində müğənnilər də var. Xəstəlik mənbəyidir. Xəstəliyi gətirəcəklər buranı nə günə qoyacaqlar? Onları da qınamıram. Nə etsinlər? Çörək pulu üçün getmişdilər. Lakin peyvənd olunsunlar. Mənim immunitet sertifikatım var. Müddəti bitəndən sonra peyvənd olunacam. Hər şey qaydasındadır. Bəzi adamlar deyir ki, xəstələrin sayı azalıb, bir oyundur. Qonşum aptek müdiridir. O deyir ki, dərman alan yoxdur. Deməli, yoluxan azdır. Əvvəl isə deyirdi, dərman çatdıra bilmirik. Gəlin, qaydalara əməl edək".

**Müğənni ötən ilin dekabr ayında koronaya yoluxduğunu xüsusi vurğulayıb:** "Bir ay evdən çıxmamışam. İndi toylara görə dietadayam. On kilo arıqlamışam. Bilirəm ki, immunitetim düşüb. Bu dəfə də yoluxsam, pis olacaq".

**Samirə**

## Tarzənin evini əlindən alıb küçəyə atıblar



**Məşhur tarzən Vahid Bağırovun var-dövlətini əlindən alıb küçəyə atıblar.**

"Şərq" xəbər verir ki, o, "Elgizlə izlə" proqramına qonaq olaraq hazırda küçələrdə qaldığını söyləyib: "Sovetski"də birotaqlı ev aldım. Allah ağlımı başımdan aldı. Bəzi adamlar başıma yığıldı. Gördüm ki, həmin mənzil də əlimdən çıxıb. Hansısa pis vərdişlərim olmayıb. Ağılsızlıq ucbatından belə oldu.

Bir neçə maşın aldım. Onlara başım qarışdı. Bir qadınla əlaqəli deyil. Günahkar özüməm. Mircəfər Bağırov mühakimə olunarkən deyib ki, məni güllələmək azdır, çarmıxa çəkmək lazımdır. Mən də elə deyirəm. Etdiklərimə görə çarmıxa çəkilməliyəm. Mirzə Ələkbər Sabirin bir sözü var: "İstərəm ölməyi mən, qaçır məndən əcəl". Nə cür bədbəxtəm ki, əcəlin də nazını çəkirəm. Günlərdir "Kəlimeyi-Şəhadəti" təkrarlayıram. Deyirəm, o biri dünyaya təmiz gedim. İçki də içməmişəm".

**Samirə**

## "İt deyiləm ki, məni kimsə saxlasın"

Səidə Sultan evli bir insanla sevgili olmayacağını deyib



**Müğənni Səidə Sultan "ARB TV"yə bir sıra iddialı açıqlamalar verib.**

"Şərq"in məlumatına görə, o, heç vaxt evli bir insanla sevgili olmayacağını söyləyib: "Subayam, məni də subay oğlan sevə bilər. Evlinin haqqı yoxdur məni sevsin. O hərəkəti edirəmsə, deməli, bacılarıma hörmətim yoxdur. Ümumiyyətlə, şou-biznesdə kimsə deyə bilməz ki, Səidə üçün nəsə etmişəm. Hər şeyi özüm bacarmışam. Elə həyatı da sevmirəm ki, kiminsə nəyisə olum, məni saxlasın. İt zadam məni saxlasın? Özümün əlim, ayağım, dilim, dilçəyim də var. Mən pul xətrinə həmin həyatı yaşaya bilmərəm. Rəsmən ölüb gəbərərəm. Müğənnilərin qız verib, oğlan evləndirməsində problem yaradan bəzi şou nümayəndələrinin düzgün həyat yaşamamasıdır. Qurunun oduna yaş da yanır. Əri ola-ola pis hərəkət edirlər. Biz müğənnilərin adı çıxır. Həmin hərəkəti etmək istəsəm, ərimdən boşanıb edərəm də. Niyə ona hörmətsizlik edim?!".

**Samirə**

## Tolik də evlənməyə qərar verdi



**Prodüser Tarix Əliyev evlənməyə hazırlaşır.**

"Şərq" xəbər verir ki, o, bu barədə instaqram hesabında paylaşım edib. Tolik fotosunu paylaşaraq bu sözləri yazıb: "Deyirəm, artıq evlənək. Ay gözləriniz aydın olsun. İyulun 1-dən toylara icazə verildi. Amma mərdimazar qohumlara tapşırın "Covid" pasportu yoxdursa, gəlməsinlər".

**Samirə**

# "Mən zövqdən danışıram"

*Cavanşir Məmmədov: "Deyirəm ki, toya "kalqotqa" ilə gəlirlər, belə olmaz"*



"Dilim başımı ucaldır. Mənə 10 milyonun sevgisi lazım deyil. Onlardan bir milyon məni sevsə, bəsdir. Hamı bir adamı bəyənə bilməz".

**"Şərq" xəbər verir ki, bu sözləri "Xəbər-ətər" proqramında müğənni Cavanşir Məmmədov deyib. O, qalmaqallı açıqlamalarından söz açıb:** "Danışmazdan əvvəl götür-qoy edirəm. Mənə deyirlər ki, sizin kimi beş-altı nəfər olsa, fikirlərimizi çatdırardı. Xalqın ağlından keçənləri dilə gətirərəm. Geyimlərə söz atmıram. Şəxsi fikrimdir. Deyirəm ki, toya "kalqotqa" ilə gəlirlər. Dəbdir deyə hamı geyinməlidir? Toya geyiniləsi paltar deyil. Oranın öz libası var. Gərək xanım-xatun geyinəsən. Sən gəlib orada mənə fiqura göstərirsən? Mənə lazım deyil. Misal üçün, çimərliyə toya geyindiyin paltarla gedərsən? Yox. Eynilə çimərlikdə geyindiyin paltarla toya gəlməməlisən. Mən zövqdən danışıram. Bilirəm ki, proqramda hansı mahnıları oxuyacam və ona uyğun geyinirəm. Aparıcı göz yormamaq üçün hər gün fərqli geyinə bilər. Amma sən ayda-ildə bir dəfə toya çağırılırsan, yanında gözəl-göyçək həyat yoldaşın var. Ona görə istəmərəm o tərz geyinilsin. Yaxşı edirsən. Lakin düz etmirsən. Kimisə məcbur edə bilmərəm. Yaltaqlanan da deyiləm. Sual verirsiniz, öz fikrimi səsləndirirəm. Düz, ya səhvdirsə deyin. Yazılan rəyləri oxumuram. Əvəzimdən cavab yazırlar".

**Samirə**

# Qiymətləri fərqlidir...

*Şou əhli sosial şəbəkələrdən qazandıqları ilə dolanır*



"MTV Azərbaycan" şou əhlinin sosial şəbəkələrdən əldə etdiyi gəliri araşdırıb.

"Şərq" xəbər verir ki, şirkətlərin reklam üçün ən çox müraciət etdiyi məşhurların Röya Ayxan, Aygün Kazımova, Tünzalə Ağayeva, Sevil Sevinc bacıları, Günay İbrahimli, Sevda Yahyayeva olduğunu söyləyib. S.Yahyayeva reklam məsələsində çox seçiçi olduğunu xüsusi vurğulayıb: "Bunu bütün dünya ulduzları edir. Bizdə niyə olmasın?! Qiymət açıqlamayacam. Belə məsələləri sevmirəm. Mən də pul qarşılığında paylaşmışam. Həddən artıq reklam təklifləri gəlib. Baxıram ki, nəyi paylaşa bilərəm. Hər şeyi qəbul etmirəm".

**Müğənni Nihat Məlik isə əldə etdiyi qazancın miqdarını açıqlayıb:** "İnstaqramda reklam təklifləri gəlib. Qəbul etməmişəm. Mən müğənniyəm və öz sənətimi nümayiş etdirirəm. "Youtube" daha çox gəlir gətirir. İnstaqram səhifəmdən pul qazanmıram. "YouTube"dən 5-7 min dollar məbləğində qazancım olub".

**Aparıcı Çinarə Əliyeva instaqram hesabında reklam üçün paylaşımlar etdiyini bildirib:** "Hekayə bölümündə 24 saatlıq paylaşım 300 manatdır. Səhifəmdə paylaşım isə 500-lə 1000 AZN arasında dəyişir.

**Aktrisa Pərvin Abıyeva isə instaqram sayəsində dolandığını deyib:** "Yetəri qədər gəlir olmasa da, heç yoxdan yaxşıdır. Məndə şərtlər çoxdur. Hekayə bölümündə bir post 500 manatdır".

Xatun Əliyevanın prodüseri Pənah Eldar hekayə bölümündə 500-1000 manat, əsas səhifədə isə 2000-1500 manata paylaşım edildiyini söyləyib.

**Nazənin Salayevanın prodüseri Pərviz Fəqan qeyd edib ki, dost şirkətlərə reklam ödənişsizdir:** "Ya biz çox pul alırıq, ya da heç almırıq".

**Samirə**

# Həbsxanadan da hədələyir



## *Zəliha evli 4 uşaq atasının ölüm təhdidləri ilə yaşayır*

*(Əvvəli səh: 16-da)*

Serdal da, "o zaman məndən ayrılmayacaqsan" şərtini qoyub. Qadın da çarəsiz qalaraq razılaşıb.

Bir müddət beləcə, təhdid altında əlaqələrini davam etdirib. Bir dəfə rəfiqəsinin evində olarkən telefonuna Serdal tərəfindən yenə təhdid mesajları gəlməyə başlayıb. Kişi əgər onunla görüşməzsə, rəfiqəsinin evinə basqın edib hər kəsə təhlükə yaradacağını yazıb. Gülser evə gəlib və qadının ayağına tapançanı dayayaraq onunla birlikdə gəlməsini tələb edib. Evdə Serdal qadını kresloda əyləşdirərək başını aşağı əyməsini tələb edib və tapançanı qadının ənsəsinə dayayaraq atəş açıb. Güllə ənsədən girib boynundan çıxıb. Körpücük sümüyünün yanından təkrar içəri girən güllə bu dəfə kreslonu dəlib parketə saplanıb. Qadın çığıraraq mətbəxə qaçıb, baş vermiş olaydan qorxuya düşən Serdal evdən qaçmaq istəyib. Pillələrdə Zəlihanın anasıyla qarşılaşıb, ona da güllə atıb, lakin hədəfə dəyməyib. Ana ilə Serdal arasında münaqişə yaşanıb. Zəliha xəstəxanaya aparılıb və həyatı xilas edilib. S.Gülser isə polis tərəfindən yaxalanıb. Buna baxmayaraq Zəliha hələ də Serdaldan ölüm təhdidləri aldığını deyir. Bu adam həbsxana divarına telefon nömrəmi yazıb, həbsdən çıxanlar mənə zəng edib Erdalın məni öldürmək istədiyini xəbər verirlər. Həbsdə ola-ola deyir ki, bu iş qurtarmayıb, mənə hansı işgəncələr yaşadacağını oradakılara danışır. Çox qorxuram. Öldürülmək istəmirəm. Zəlihanın vəkili isə S.Gülserin ən ağır cəza alması üçün hüquqi çərçivədə gərəkən nə varsa, edəcəyini deyib.

**Məlahət**

## Qartal yuvasına toyuq yumurtası qoydu

### Əsl tamaşa balalar yumurtadan çıxan vaxt yaşanıb

**Macarıstanlı Daniel ana qartalla anaş toyuq üzərində təcrübə keçib. Kiçik demək olmaz, əksinə, böyük bir təcrübə.**





Çünki təcrübənin məqsədi anaların öz balalarını nə qədər yaxşı tanıyıb-tanımadığını, "analıq" hisslərinin hansı canlıda daha üstün olduğunu üzə çıxarmaq olub. Deməli, həyətində toyuq-cücə bəsləyən Daniel yaxınlıqda bir qartalın da yumurtaları üzərində yatdığını görüb. Qartal növbəti dəfə havaya qalxıb ənginliklərdə süzdüyü zaman Daniel onun yuvasına "əl uzadıb". Ana qartalın yumurtalarından birini oğurlayıb və gizlicə həyətdə kürt yatan toyuğun yumurtalarının arasına qoyub. Əsl tamaşa balalar yumurtadan çıxan vaxt yaşanıb. Toyuq yumurtadan çıxanlar arasında qartal balasının olduğunu fərq etməyib, bəlkə də edib, amma davranışları bunu bürüzə verməyib. Ana toyuq cücələrlə bərabər qartal balasını da himayəsi altına alıb və onu da yemləməyə başlayıb. Qartalın davranışları isə tamam fərqli olub. Qartal yumurtadan çıxanlardan birinin özünə oxşamadığını dərhal fərq edib. Ona qəribə - qartalvari nəzərlərlə baxmağa başlayıb. Lakin ona toxunmayıb, amma balalarından ayırıb. Ovladığı qəniməti didib balalarına yedirən ana qartal toyuğun cücəsini yemləməyib. Yəqin bununla başa salmaq istəyib ki, ot, dən yeyən ət yeməməlidir. Danielsə bununla sübut edib ki, analıq duyğuları hər bir canlıda var, lakin fərqli biçimdə.

**Məlahət**

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 22.04.2021-ci il tarixli, 5166121319/20-15-12 saylı sifarişi ilə, Şamaxı rayonu, Çuxuryurd kəndində yerləşən 1,447622 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə dair 16 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi təkrar hərracda satış qiyməti 18.360 (on səkkiz min üç yüz altmış) manatdan 30% aşağı olmaqla, yəni 12.852 (on iki min səkkiz yüz əlli iki) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 05 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin (12.852) 5%-i, yəni 642 (altı yüz qırx iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

## 100 mindən çox Azercell abunəçisinə 5GB aylıq internet paketi hədiyyə olunub

### Şirkət 4G dəstəkləyən SİM kartları pulsuz təqdim edir




**Azercell-in 5GB aylıq internet paketi qazandıran kampaniyası davam edir. Ötən ilin oktyabrında başlayan kampaniya çərçivəsində artıq 100 mindən çox Azercell abunəçisinin SİM kartı dəyişdirilib. Onların hər birinə ödənişsiz əsaslarla 4G-ni dəstəkləyən yeni SİM kartla yanaşı, 5Gb aylıq internet paketi də hədiyyə olunub.**

Müasir dövrün çağırışları istənilən sahədə (bank, nəqliyyat, təhlükəsizlik, səhiyyə, kommunal xidmətlər və s.) yüksək texnologiyalardan istifadəni zəruri edir. Hazırda Azercell-in 4G şəbəkəsi ilə 240 mbit/san qədər endirmə, 95 mbit/san qədər isə yükləmə sürəti əldə olunur. Azercell-in 4G texnologiyası abunəçilərin mobil TV, videokonfrans, onlayn oyun, müxtəlif proqramlardan daha rahat istifadəsinə və kəsintisiz səsli zənglər etməsinə, böyük həcmli videoları daha yüksək keyfiyyətdə izləməsinə, bu faylları daha tez yükləyib ötürməsinə şərait yaradır.

4G-nin üstünlüklərindən istifadə etmək üçün 4G-ni dəstəkləyən mobil telefonun və yeni nəsil LTE texnologiyasını dəstəkləyən USİM sim kartının olması əsas şərtdir. SİM kartın 4G dəstəkləməsini yoxlamaq üçün 4G yazıb 2525-ə göndərmək kifayətdir. Əgər SİM kart bu texnologiyanı dəstəkləmirsə, istənilən Azercell satış və ya xidmət mərkəzinə yaxınlaşaraq ödənişsiz əsaslarla nömrənin 4G dəstəkləyən dublikatını əldə etmək və birdəfəlik bonus şəklində 5Gb aylıq internet paketi qazanmaq mümkündür.

*Qeyd edək ki, kampaniya yalnız 4G şəbəkəsini dəstəkləməyən SİM karta sahib olan abunəçilərə şamil olunur.*

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1136



# Uçan taksilər 2024-cü ildə istifadəyə veriləcək

**Almaniyanın "Volocopter" şirkəti helikopterə bənzər, lakin ölçüsü daha kiçik olan elektrikli avtomobili təqdim edib.**

"Şərq" "Cnnturk.com"a istinadən xəbər verir ki, uçan taksilər 2024 il Paris Olimpiadasında istifadə ediləcək.

Helikopterə bənzər taksi üç dəqiqəlik ilk uçuşunu edib. Şirkətdən verilən açıqlamada deyilir ki, uçan taksilər saatda 30 kilometrə qədər sürət göstərə, 30 metr qalxa və 500 metr məsafəyə çata bilər. Taksinin tutumu isə 2 nəfərdir.

Şirkətin məlumatına görə, taksilər əvvəlcə pilot lisenziyası ilə idarə ediləcək, sonra isə tam avtomatik olacaq.

**Yeganə**

# 10 yaşlı qızın faciəsi...

Tüfəng açıldı, güllə başına dəydi



**Türkiyənin Hakkari bölgəsində 10 yaşlı Əbrar Durnanın evdə saxlanılan tüfəng marağını çəkib, uşaq tüfəngi əlinə alıb o tərəf bu tərəfinə baxdığı anda atəş açılıb.**

Tüfəngdən açılan atəş qızcığazın başından dəyib. "Milliyet.com"da yer alan xəbərdə bildirilir ki, hadisə Yüksəkova əyalətinə bağlı İnanlı məhəlləsində baş verib. 10 yaşlı Əbrarın anası bayırda ev işləriylə məşğul imiş. Əbrar 4 aylıq qardaşına nəzarət etmək üçün evə daxil olub, görünür, bu sırada evdəki tüfəng diqqətini çəkib, qızcığaz onu əlinə alıb. Tüfəng açılıb və güllə Əbrarın başına dəyib. Güllə səsinə özünü içəri atan ana qızını qan içində görüb. Uşaq xəstəxanaya aparılsa da həyatını xilas etmək mümkün olmayıb.

**Məlahət**

# Divarı yarıb, mətbəxə girdi

Qadın nəhəng filin səsinə oyanıb



**Taylandda "Kaeng Krachan" Milli Parkından qaçan fil yemək axtararkən divarı yıxaraq yaxınlıqdakı evin mətbəxinə girməyə çalışıb.**

"Şərq" "Haberglobal.com"a istinadən xəbər verir ki, Ratçadavan adlı qadın evində güclü bir səsə oyanıb. Nə baş verdiyini görmək üçün ətrafa baxan qadın "Boonchuay" adlı filin mətbəx divarını yıxaraq, yeməli bir şey axtarması ilə qarşılaşıb.

Açıqlama verən Milli Park səlahiyyətlilərindən biri söyləyib: "Parkdakı fillər həmişə yerli bazar qurulduqda şəhərə gəlirlər, çünki yeməkləri iyləyə bilirlər.

Tayland mediasında yer alan xəbərlərə görə, eyni fil Ratçadavanın mətbəxinə əvvəl də girib və xeyli ziyan vurub.

**Yeganə**



# Həbsxanadan da hədələyir

*Zəliha evli 4 uşaq atasının ölüm təhdidləri ilə yaşayır*



**Erdemitdə yaşayan Zəliha Atlar ötən ilin martında sosial mediada Serdal Gülser adlı birisiylə tanış olub.**

Aralarındakı dostluq bir müddət sonra yaxın əlaqəyə çevrilib. Və onlar birgə həyat sürməyə başlayıblar. "Şərq" Tükiyə mediasına istinadən xəbər verir ki, 2 ay sonra Zəliha Serdalın evli və 4 uşaq atası olduğunu öyrənib və ondan ayrılmağa qərar verib. Bunu eşidən Serdal Zəlihanın evinə əlində silah gəlib və onu ölümlə təhdid etməyə başlayıb. Zəliha olanlarla bağlı polisə şikayət edib. Serdal Gülser haqqında "uzaqlaşdırma" qərarı verilib, lakin buna baxmayaraq o, yenə də qadını narahat etməyə, təhdidlər göndərməyə davam edib. Uzaqlaşdırma qərarına əməl etməməsinə rəğmən S.Gülser barəsində polis heç bir tədbir almayıb. Bir gün Serdal yenə Zəlihaya zəng edərək görüşüb danışmaq istədiyini deyib. Qadın da razılaşıb. Axşam saatlarında qadın onun ardınca gələn Serdalın maşınına minib. Serdal qadını dağlıq bir əraziyə aparıb, avtomobildən enməsini istəyib. Sonra maşının baqajından bel, tüfəng götürərək "səni bura öldürməyə gətirmişəm. Sən öldürüb burada dəfn edəcəm", deyib. Qadın qorxudan Serdalın ayaqlarına qapanıb, yalvarıb.

*(Davamı səh: 15-də)*



**Məlahət**

# 40 saat işlədi...

Sonunda səma daşından nişan üzüyü düzəltdi





**Nişanlanmağa hazırlaşanların nişan üzüyü axtarışları da bir başqa aləmdir.**

Hamı istəyir ki, nişan üzüyü başqalarından fərqlənsin, qeyri-adi olsun, dost-tanışa nümayiş etdirib öyünsün. Günümüzdə bu, çətin işdir. Çünki zərgərlik məmulatlarının demək olar 99 faizi bir-birinin eynidir. Sanki hamısı eyni qəlibdən, eyni zərgər əlindən çıxıb. Bir nəfərsə kimsənin ağlına gəlməyəni edib. Göy daşından - nə vaxtsa səmadan yerə düşmüş daş parçasından nişan üzüyü düzəldib. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, adam bu iş üçün nə az, nə çox, düz 40 saat çalışıb. Xüsusi alətlərdən istifadə etməklə əvvəlcə daşın ortasında dəlik açıb. Sonra onu saatlarla cilalayıb, üzüyün qaşı üçün də yer müəyyən edib. Nəticə heyranedici olub. Səma daşından nişan üzüyü hazırlayan adam gördüyü işin bütün detallarını əks etdirən videonu sosal şəbəkədə yerləşdirib. Bir müddət əvvəl buna bənzər bir sənətkarlığı Qərbi Afrika ölkəsi Namibiyada "Laporkensten" adı altında "Reddit" sosial şəbəkəsində bir nəfər də paylaşmışdı. Bu daş XIX əsrdə göydən yerə düşmüş Gibeon meteoriti idi. Laporkensten meteoritin kiçik bir parçasından üzük düzəltmişdi. Bu işi şəxsi avtomobil qarajında qurduğu dəzgahlar sayəsində icra etmişdi. Gibeon meteoriti XIX əsrdə yerə düşərək 275 kilometrlik bir əraziyə yayılan meteoritdir. Sənətkar demişdi ki, meteorit parçasını üzük halına salmaq üçün polad bıçaq istehsalındakı üsullardan istifadə edib. Amma hər "təbii", "mineral" adı verilən daş da göydəndüşmə deyil. Qeyri-adilik axtaranlar görünüşə aldanmasın.

**Məlahət**

# "Ər axtarıram"

Rus gözəlin futbol meydançasında qaldırdığı plakat diqqət çəkdi



**Futbol üzrə Avropa çempionatının Sankt-Peterburqda keçirilən İsveç-Slovakiya oyununa tamaşaçı qismində qatılan rus qızının qaldırdığı plakat diqqət çəkib.**

Rus qızın başının üzərinə qaldırdığı plakatda ingilis dilində "Ər axtarıram" sözləri yazılıb. Xanım bu plakatla da sosial medianın gündəminə çevrilib. Məlumdur ki, Avro-2020 koronavirus pandemiyası səbəbiylə 1 il təxirə salındı. Pandemiya hələ bitmədiyindən Avro-2020 tək bir ölkədə deyil, dünyanın 11 müxətlif ölkəsində, ayrı-ayrı şəhərlərdə keçirilir. Rusiyanın Sankt-Peterburq şəhərində də qrup oyunlarının bir neçəsi keçiriləcək. Stadionlara azarkeşlər az sayda buraxılır. Eyni zamanda modellik edən Anastasiya isə belə bir diqqət çəkən plakat qaldırıb. Sonra da sosial şəbəkədə fotosunu paylaşaraq "əylənin, gülümsəyin, fotbolun keyfini çıxarın", "Əla oyunlar və nəşəli seyrcilər üçün təşəkkülər", sözlərini də əlavə edib.

**Məlahət**